## PREZİDENT İLHAM ƏLİYEV SƏUDİYYƏ ƏRƏBİSTANININ DAXİLİ İŞLƏR NAZİRİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL EDİB

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 4-də Səudiyyə Ərəbistanı Krallığının daxili işlər naziri şahzadə Əbdüləziz bin Səud bin Nayif Al Səudun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Azərbaycan Respublikası ilə...



Bax səh. 3

## PREZİDENT İLHAM ƏLİYEV FƏLƏSTİNİN XARİCİ İŞLƏR NAZİRİNİ QƏBUL EDİB

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 4-də Fələstin Dövlətinin xarici işlər naziri Riad Əl-Malikini qəbul edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Azərbaycanın Fələstin məsələsinə münasibətdə daim həmrəylik nümayiş etdirdiyini və dəstəyini əsirgəmədiyini qeyd edərək, noyabrın 5-də Bakıda keçiriləcək Fələstin Dövlətinin Asiya ölkələrindəki səfirlərinin toplantısına Azərbaycanın ev sahibliyi etməsinin bunun bariz nümunəsi olduğunu vurğulayıb...



Bax səh. 3




Yeni Azərbaycan Partiyası Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır

# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 06 noyabr 2018-ci il, çərşənbə axşamı / № 210 (5337). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik


# Azərbaycan Prezidenti İlham Əliyev Ağdam rayonuna səfər edib



# "Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət sakinlərin istifadəsinə verilib







IDEA İctimai Birliyinin və "Cavan" Gənclər Hərəkatı İctimai Birliyinin birgə təşkilatçılığı, Bakı şəhəri üzrə rayon icra hakimiyyətlərinin dəstəyi ilə baxımsız həyətlərin abadlaşdırılmasına yönəlmiş "Bizim həyət" layihəsi uğurla davam edir.

Noyabrın 5-də "Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət sakinlərin istifadəsinə verilib. Yenilənən həyət Binəqədi rayonu, Azadlıq prospektində yerləşən, 3 min sakinin məskunlaşdığı 186, 188 və 194 saylı binaları əhatə edir.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva həyətin istifadəyə verilməsi mərasimində, o cümlədən tədbir zamanı keçirilmiş kütləvi ağacəkmədə iştirak edib.

"Bizim həyət" layihəsinin əsas məqsədi ekoloji cəhətdən təmiz və abad həyətlərin modelləşdirilməsi, yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşayış şəraitinin yaradılmasıdır.

Binəqədi Rayon İcra Hakimiyyətinin dəstəyi ilə həyata keçirilən "Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan, beş min kvadratmetr sahəsi olan həyətdə sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması məqsədilə xüsusi qurğular yerləşdirilib. Bundan əlavə, burada şahmat və futbol meydançaları, idman alətlərindən ibarət kiçik meydança salınıb, Novruz çərşənbələrinin milli adət-ənənələrə uyğun qeyd edilməsi üçün tonqal sahəsi inşa olunub. Abadlaşdırılan həyətdə yoqa həvəskarları üçün də xüsusi yer ayrılıb.

Bu cür meydançaların salınmasında əsas məqsəd gənclərin sağlam həyat tərzi sürmələrinə, sağlamlıqlarını möhkəmləndirmələrinə, asudə vaxtlarını səmərəli keçirmələrinə, o cümlədən onlarda sistematik idmanla məşğul olma vərdişlərinin yaradılmasına nail olmaqdır.

Sakinlərin istək və maraqları nəzərə alınaraq, çoxmənzilli binaların fasadları və giriş hissələri də tam təmir olunaraq onların istifadəsinə verilib. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq 300-ə yaxın ağac və kol əkilib. Sakinlərin rahatlığının təmin edilməsi məqsədilə müşahidə kameraları quraşdırılıb, Daxili İşlər Nazirliyinin "Təhlükəsiz şəhər" avtomatlaşdırılmış idarəetmə mərkəzinin şəbəkəsinə qoşulub.

Qeyd edək ki, "Bizim həyət" layihəsi Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə keçirilir. Binəqədi rayonunda sakinlərin istifadəsinə verilən bu həyət layihə çərçivəsində abadlaşdırılan altıncı həyətdir.

Sözügedən layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar, paytaxtımızın abadlaşdırılmaya ehtiyacı olan həyətləri haqqında məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.



# Prezidentin iş günü

Prezident İlham Əliyev V Bakı beynəlxalq teatr konfransının iştirakçılarını təbrik edib. Təbrikdə deyilir: *"Hörmətli konfrans iştirakçıları!*

*Sizi V Bakı beynəlxalq teatr konfransının açılışı münasibətilə salamlayır və konfransın işinə müvəffəqiyyətlər arzu edirəm.*

*Mədəniyyət bütün dövrlərdə insanların ünsiyyətinin başlıca vasitəsi və sivilizasiyalar arasında qarşılıqlı əlaqələrin etibarlı körpüsü olmuşdur. Bununla əlaqədar teatr sənəti də mənəviyyat və mədəni tərəqqi tarixi ilə daim dərin bağlılıqda təşəkkül tapmış və bədii-estetik fikrin zənginləşməsində həmişə mühüm rol oynamışdır.*

*XIX əsrin ikinci yarısından başlayaraq Azərbaycanda cərəyan edən və maarifçilik hərəkatını canlandıran ictimai-siyasi hadisələr ədəbiyyat, mədəniyyət və incəsənət sahələrində forma və məzmun dəyişikliklərinə yol açdı. Həmin dövr Azərbaycan teatrının inkişafı baxımından olduqca əlamətdardır. Böyük mütəfəkkir Mirzə Fətəli Axundzadə tərəfindən milli dramaturgiyanın təməlinin qoyulması ölkəmizdə xalq teatrının peşəkar teatr sənətinə çevrilməsi ilə nəticələndi. Ötən müddət ərzində dolğun fəaliyyət göstərmiş və əsl milli sərvətə çevrilmiş Azərbaycan teatrı bu gün də xalqımızın sosial-mədəni həyatında özünəməxsus layiqli yer tutur.*

*Məmnunluq hissi ilə qeyd etmək istəyirəm ki, konfransın ölkəmizin paytaxtında "Azərbaycan teatrı 2009-2019-cu illərdə" Dövlət Proqramı çərçivəsində təşkili xoş bir ənənə halını almışdır. Dünyanın 40-dan çox ölkəsindən gəlmiş teatr xadimlərinin, mötəbər teatr qurumlarının rəhbərləri və təmsilçilərinin, teatr mütəxəssislərinin iştirakı bu konfransın artan nüfuzundan xəbər verir. Sürətli qloballaşma şəraitində müasir teatrın imkanları, qarşılaşdığı problemlər və gələcək inkişafının əsas istiqamətlərinə dair mövzularda səmərəli fikir mübadiləsi aparılacağına və birgə layihələr işlənib hazırlanacağına əminəm.*

*Ümidvaram ki, konfrans geniş müzakirələr yolu ilə yaradıcılıq məsələlərinin uğurlu həllinə müvəffəq olaraq ölkələrimiz və xalqlarımız arasında mədəni əməkdaşlığın dərinləşməsi və dostluq tellərinin möhkəmlənməsinə dəyərli töhfələr verəcəkdir.*

*Hər birinizə gələcək fəaliyyətinizdə nailiyyətlər diləyirəm".*

◆ ❖ ◆

Prezident İlham Əliyev Qəzənfər Məmməd oğlu Paşayevə "Əməkdar elm xadimi" fəxri adının verilməsi haqqında Sərəncam imzalayıb.

◆ ❖ ◆

Prezident İlham Əliyev Ağdam rayonunda əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

◆ ❖ ◆

Prezident İlham Əliyev Ağdam rayonunun erməni silahlı birləşmələri ilə təmas xəttində yerləşən yaşayış məntəqələrində əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

◆ ❖ ◆

Prezident İlham Əliyev Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun əməkdaşlarının "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

◆ ❖ ◆

Prezident İlham Əliyev Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun əməkdaşlarının "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

◆ ❖ ◆

Prezident İlham Əliyev Ağdam rayonunun Birinci Yüzbaşılı kəndində yeni ümumtəhsil məktəbi binasının tikintisi haqqında Sərəncam imzalayıb.

# Azərbaycan Prezidenti İlham Əliyev Ağdam rayonuna səfər edib

Noyabrın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam rayonuna səfərə gəliblər.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ümummilli lider Heydər Əliyevin Ağdam rayonunun Quzanlı qəsəbəsinin mərkəzində ucaldılan abidəsini ziyarət edərək önünə gül dəstələri qoyublar.



Ağdam rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənov rayonda görülən işlər barədə dövlətimizin başçısına və birinci xanıma məlumat verib.

Prezident İlham Əliyev müvafiq tapşırıqlarını verib.

Dövlətimizin başçısı Ağdam rayonunda əsaslı şəkildə yenidən qurulan Quzanlı-İmamqulubəyli-Orta Qərvənd-Xındırıstan avtomobil yolunun açılışında iştirak edib.





Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov görülən işlər haqqında dövlətimizin başçısına məlumat verib.

Dövlətimizin başçısı Quzanlı-İmamqulubəyli-Orta Qərvənd-Xındırıstan avtomobil yolunun rəmzi açılışını bildirən lenti kəsib.

Daha sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunan Ağdam Muğam Mərkəzinin açılışında iştirak ediblər.

Dövlətimizin başçısı və birinci xanım Ağdam Muğam Mərkəzinin rəmzi açılışını bildirən lenti kəsiblər.

Layihəni icra etmiş "Azəraqrartikinti" Açıq Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının sədri Ağalar Vəliyev dövlətimizin başçısına və birinci xanıma məlumat verib.









Muğam Mərkəzi ilə tanışlıqdan sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva rayon ictimaiyyətinin nümayəndələri və Ağdam rayonundan olan incəsənət xadimləri ilə görüşüblər.

Dövlətimizin başçısı görüşdə çıxış edib: **"Əziz dostlar, bu gün Ağdam rayonunun tarixində çox əlamətdar bir gündür. Biz Ağdam Muğam Mərkəzinin açılışını qeyd edirik. Bu münasibətlə sizi və bütün Ağdam sakinlərini ürəkdən təbrik edirəm.**

**Bu gözəl, möhtəşəm bina bir daha onu göstərir ki, Azərbaycan xalqı və dövləti öz milli sənəti olan muğama çox böyük sevgi ilə yanaşır. Bina həm xarici görünüşü və memarlıq baxımından çox gözəldir, həm də daxili tərtibat da göz oxşayır. Dərs otaqları, eyni zamanda, gözəl konsert salonu ən yüksək standartlara cavab verir. Bu Muğam Mərkəzində həm məşhur ifaçılarımız öz məharətlərini göstərəcəklər, həm də gənclər muğam sənətinə cəlb ediləcəklər. Bir sözlə, bu mərkəzin çox böyük əhəmiyyəti, çox böyük mənası var. Mən şadam ki, bu mərkəzin açılışında bizim görkəmli muğam ifaçıları, incəsənət xadimləri, Ağdam rayonunun ziyalıları, nümayəndələri iştirak edirlər.**

**Bu mərkəzin yaradılması Heydər Əliyev Fondunun təşəbbüsü ilə mümkün olmuşdur və mən bu təşəbbüsü yüksək qiymətləndirirəm. Ölkəmizdə bir neçə muğam mərkəzi fəaliyyət göstərir. Biz, ilk növbədə, Bakı Beynəlxalq Muğam Mərkəzinin yaradılmasını təmin etdik. Şəhərimizin ən gözəl yerində - bulvarda yerləşən mərkəz həm memarlıq, həm də bütün başqa keyfiyyətlər baxımından ən yüksək səviyyədədir. Ondan sonra Füzuli, Ağcabədi rayonlarında muğam mərkəzləri yaradılmışdır və bu gün biz Ağdam rayonunda mərkəzin açılışını qeyd edirik.**

**Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın muğama göstərdiyi diqqət hesab edirəm ki, bütün cəmiyyət tərəfindən yüksək qiymətləndirilir. Biz son illərdə muğamın demək olar ki, dirçəlməsini görürük. Biz əsrlər boyu bu gözəl milli sənətimizi yaşatmışıq, inkişaf etdirmişik, ancaq son illərdə muğamın Azərbaycanda inkişafına çox böyük təkan verildi. Ənənəvi muğam müsabiqələri keçirilir və Azərbaycan televiziyası ilə canlı yayımlanır. Bu müsabiqələrin çox böyük əhəmiyyəti var. Həm gənc nəsil yetişir, həm gənc istedadlar gələcəyə yol tapırlar, həm də muğamın nə qədər gözəl sənət olduğunu bütün Azərbaycan vətəndaşları görür, peyk vasitəsilə dünya da görür. Doğrudan da ənənəvi muğam müsabiqələri çox əhəmiyyətli hadisəyə çevrilmişdir. Həmçinin Heydər Əliyev Fondunun təşəbbüsü ilə ölkəmizdə ənənəvi olaraq beynəlxalq muğam festivalları da keçirilir. Bu təşəbbüsün də çox böyük əhəmiyyəti var. Çünki biz bu festivalların keçirilməsi ilə bir daha göstəririk ki, muğam milli sənətimizdir və muğamın bu gün dünyada yaşaması böyük dərəcədə Azərbaycan xalqının zəhməti, istedadı hesabına mümkündür. Biz haqlı olaraq hesab edirik ki, muğamın vətəni Azərbaycandır və beynəlxalq festivalların keçirilməsi, əlbəttə, bu tezisi daha da möhkəmləndirir.**

**Mehriban Əliyeva UNESCO-nun xoşməramlı səfiridir və Azərbaycan muğamını səfir kimi UNESCO-nun qeyri-maddi mədəni irs siyahısına daxil etdirmişdir. Bu da tarixi hadisədir, hesab edirəm ki, sözün əsl mənasında, tarixi hadisədir. Çünki bu addım həm dünya miqyasında muğama göstərilən böyük diqqətin, verilən əhəmiyyətin təzahürü idi, eyni zamanda, UNESCO muğamı Azərbaycan sənəti kimi qəbul edib. Heydər Əliyev Fondunun təşəbbüsü ilə bir çox mədəni tədbirlər, təqdimatlar, sərgilər keçirilmişdir, görkəmli ifaçılarımızın diskləri, kitabları, albomları buraxılıb. Yəni, çox böyük bir iş aparılıb. Bu gün açılışına toplaşdığımız Ağdam Muğam Mərkəzinin yaradılması bu böyük işlərin tərkib hissəsidir.**

**Bir daha demək istəyirəm ki, muğam bizim milli sənətimizdir, milli sərvətimizdir. Bu gün burada toplaşan incəsənət xadimləri bu gözəl sənəti yaşadan insanlardır. Bizim mənəvi dəyərlərimizin, Azərbaycan dəyərlərinin inkişafı, qorunması üçün ədəbiyyatımızın, musiqimizin çox böyük əhəmiyyəti var. Muğam həm ədəbiyyatdır, həm musiqidir, həm də Azərbaycan dilinin saflığını qoruyan sənətdir. Mən bu yaxınlarda Azərbaycan dilinin saflığının qorunması ilə bağlı Fərman imzalamışam. Buna ehtiyac var, mən bu məsələ ilə bağlı bir neçə dəfə öz fikirlərimi bildirmişəm. Bizim çox zəngin dilimiz var və Azərbaycan ədəbiyyatı bunu təsdiqləyir. Ancaq indi dünyada gedən qloballaşma prosesləri, digər proseslər istər-istəməz dilimizə də təsir edir, biz dilimizi xarici təsirdən qorumalıyıq. Bizim dilimizə lüzumsuz xarici kəlmələr lazım deyil. Bizim dilimiz o qədər zəngindir ki, istənilən fikri, istənilən məsələni ifadə etmək mümkündür. Ancaq biz görürük ki, bəzi hallarda həm kütləvi informasiya vasitələrində, həm digər sahələrdə dilimizə yad kəlmələr daxil edilir. Bunlar dilimizi zənginləşdirmir, əksinə, bəzən mövcud sözlər yeni sözlərlə əvəzlənir və mən bunun qəti əleyhinəyəm. Bu gün bu fürsətdən istifadə edərək, bir daha bildirmək istəyirəm ki, hamımız öz dilimizi qorumalıyıq. Əlbəttə, bizim incəsənətimizin ənənəvi növləri, o cümlədən muğam sənəti bu sahədə xüsusi rol oynayır.**

**Mən qeyd etdim ki, bizim incəsənətimiz, ədəbiyyatımız milli ruhumuzu daha da yüksək səviyyəyə qaldırır. Biz elə etməliyik ki, gənc nəsil də milli ruhda tərbiyə alsın, vətənpərvərlik ruhunda böyüsün və gələcəkdə ölkəmizi ləyaqətlə idarə edə bilsin. İki il bundan əvvəl Azərbaycan xalqı bir daha öz yüksək mənəvi ruhunu nümayiş etdirib. Aprel döyüşləri bizim şanlı tariximizdir, böyük tarixi qələbəmizdir. Mənfur qonşular bizim kəndlərimizi atəşə tutmuşdu. Bu qeyri-insani hücum nəticəsində dinc vətəndaşlar həlak olmuş, yüzlərlə evə ziyan dəymiş, bizim kəndlərimiz, yaşayış məntəqələrimiz atəşə tutulmuşdu. Azərbaycan Ordusu uğurlu əks-hücum əməliyyatı keçirərək düşmən mövqelərini məhv etdi, düşməni öz yerinə oturtdu və işğal altında olan torpaqların bir hissəsini işğalçılardan azad etdi. Füzuli, Cəbrayıl, Ağdərə rayonlarında işğal altında olan minlərlə hektar torpaq azad edildi. İndi biz on minlərlə hektar torpağa tam nəzarət edirik. Aprel döyüşləri bizim böyük qələbəmizdir. Bu qələbə onu göstərir ki, Azərbaycan xalqı heç vaxt işğalla barışmayacaq.**

**Ağdam rayonunda da dağıntılara məruz qalmış 600-dən çox ev qısa müddət ərzində bərpa edildi, yenidən tikildi. Bu, bir daha onu göstərir ki, Azərbaycan dövləti güclü dövlətdir. Döyüşlərdən sonra biz Mehriban xanımla birlikdə Ağdamda olduq, dağılmış evlərin sahibləri ilə görüşdük. O vaxt mən söz verdim ki, bütün evlər qısa müddət ərzində bərpa ediləcək, belə də oldu. 2016-cı ilin sonunda biz növbəti dəfə Ağdama gələrək artıq tikilmiş, bərpa olunmuş evlərin açılışında iştirak etdik. Bir neçə gün bundan əvvəl buraya səfərə hazırlaşarkən mənə məruzə edildi ki, təmas xəttinə yaxın olan 19 kənddə hələ də təmirsiz 121 ev var. Bu evlərin yenidən tikilməsi, bərpası ilə bağlı müvafiq Sərəncam veriləcəkdir.**

**Aprel döyüşləri bizim barışmaz ruhumuzun təzahürüdür. Bir daha qeyd etmək istəyirəm ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmayacaq. Aprel döyüşləri onu göstərdi ki, Ermənistan tərəfindən uzun illər ərzində yaradılan mif darmadağın edildi, onu göstərdi ki, Azərbaycan Ordusu istənilən vəzifəni icra etməyə qadirdir, buna hazırdır və biz bunu sübut etdik. Ermənistanın acı hərbi məğlubiyyəti onun möhkəm olmayan sütunlarını tam sıradan çıxardı. Bu ilin yazında Ermənistanda baş vermiş hadisələr bunun bariz nümunəsidir. Məhz 2016-cı ilin aprel ayında Ermənistanın işğalçı rejiminə çox böyük zərbə vuruldu və onlar öz işğalçılıq siyasətinin qurbanına çevrildilər. Mən dəfələrlə demişdim ki, Ermənistanı idarə edən kriminal xunta rejimi bütün dünya birliyi tərəfindən qınaq obyektinə çevrilməlidir. Mən demişdim ki, Ermənistanı idarə edən insanlar kriminal xunta rejiminin başçılarıdır. İndi bunu erməni xalqı deyir. Biz demişdik ki, onların generalları oğrudur. Biz demişdik ki, onların qəhrəmanları cinayətkardır, qorxaqdır, indi bunu erməni xalqı deyir. Yəni, biz dediyimizi indi erməni xalqı deyir və görür. Ermənistanda bu il baş vermiş dəyişikliklər onların işğalçılıq siyasətinin tam iflası deməkdir, bu, bir. İkincisi, bu hadisələr onu göstərir ki, bizim apardığımız siyasət öz nəticəsini verir. Mən dəfələrlə demişəm, bu gün də demək istəyirəm, - bunu heç gizlətməyə də ehtiyac yoxdur, - biz bundan sonra da Ermənistanı bütün regional layihələrdən təcrid edəcəyik, bütün vasitələrdən istifadə edib öz ərazi bütövlüyümüzü bərpa edəcəyik.**

**Ermənistanın yeni rəhbərliyi əvvəlki kriminal rejimin səhvlərini təkrarlamamalıdır, işğal edilmiş torpaqlardan öz işğalçı qüvvələrini tezliklə danışıqlar yolu ilə çıxarmalıdır və imkan verməlidir ki, Azərbaycan vətəndaşları öz doğma, tarixi, əzəli torpağına qayıtsınlar. Bunu nə qədər tez anlasalar, o qədər də onlar üçün yaxşı olar, bölgə üçün yaxşı olar. Bir daha demək istəyirəm ki, biz bu vəziyyətlə barışmaq fikrində deyilik, beynəlxalq hüququn normaları bizim mövqeyimizi tam dəstəkləyir, tarixi ədalət bizim tərəfimizdədir.**

**Biz hamımız yaxşı bilirik ki, Dağlıq Qarabağ əzəli, tarixi Azərbaycan torpağıdır, əsrlər boyu belə olub, bu gün də belədir, sabah da belə olacaq. Sadəcə olaraq, 1990-cı illərin əvvəllərində Azərbaycanda baş vermiş hadisələr, xaos nəticəsində Ermənistan xarici dəstəklə bizim torpaqlarımızın bir hissəsini işğal edib. Ancaq iki il bundan əvvəl biz nümayiş etdirdik ki, torpaqlarımızı hərbi yolla azad edə bilərik və etdik də. Bu il Ermənistan-Azərbaycan sərhədinin Naxçıvan istiqamətində apardığımız uğurlu əməliyyat nəticəsində on min hektardan çox ərazi, o cümlədən strateji əhəmiyyət daşıyan yüksəkliklər bizim nəzarətimizə keçdi. Biz indi strateji kommunikasiyalara, yollara, o cümlədən Ermənistan ərazisindəki yollara, Dağlıq Qarabağa gedən kommunikasiyalara tam nəzarət edirik.**

**Yəni, bütün bu amillər onu göstərir ki, bizim iradəmiz də, gücümüz də var. Bu gün Azərbaycan hərbi baxımdan nəinki Ermənistanla müqayisədə, dünya miqyasında güclü dövlətlər sırasındadır. Biz hərbi qüdrətimizi bundan sonra da artıracağıq və hesab edirəm ki, bu, danışıqlar üçün ən vacib amillərdən biridir. Çünki, əfsuslar olsun, beynəlxalq hüququn normaları tamamilə kənara qoyulur. Biz istədiyimizə nail olacağıq. Biz ədalət tələb edirik. Biz tələb edirik ki, tarixi torpaqlarımız işğalçılardan azad edilsin və ediləcəkdir. Azərbaycan dövləti bu müqəddəs məqsədə çatmaq üçün bundan sonra da bütün lazımi tədbirləri görəcək. Ümid edirəm ki, Ermənistan rəhbərliyi bölgədə yaranmış vəziyyəti düzgün təhlil edərək, öz işğalçı qüvvələrini tezliklə bizim torpaqlarımızdan geri çağıracaqdır. Əks təqdirdə, istənilən variant mümkündür və biz istənilən varianta hazırıq.**

**Biz son illər ərzində Ağdam rayonunun inkişafına da böyük diqqət göstərmişik. Rayonun infrastrukturunun yenilənməsi, yaradılması istiqamətində böyük işlər görülüb. Bu gün biz gözəl Muğam Mərkəzinin açılışını qeyd edirik. Eyni zamanda, bu gün Ağdam rayonunda xalça fabrikinin açılışı gözlənilir, iki yol layihəsinin açılışını qeyd etdik. Bu yolların uzunluğu 66 kilometrdir. Ümumiyyətlə, deyə bilərəm ki, Ağdam rayonunun yol infrastrukturu təxminən 95 faiz təzələnib, yeni yollar salınıb. Elektrik enerjisi ilə bağlı heç bir problem yoxdur. Ağdam rayonunda qazlaşdırmanın səviyyəsi 98 faizdir. İçməli su və suvarma suyu ilə bağlı problemləri həll etmək üçün mən 2016-cı ildə 30 subartezian quyusunun qazılması haqqında Sərəncam imzalamışam. Növbəti Sərəncam imzalanacaq və əlavə 35 subartezian quyusunun qazılması, eyni zamanda, yeni məktəbin tikintisi təmin ediləcəkdir. Əvvəlki illərdə Ağdam rayonunda xəstəxana, doğum evi, uşaq xəstəxanası, Olimpiya İdman Kompleksi tikilib. Ağdam rayonu ərazisində 18 yeni köçkün qəsəbəsi salınıb. Mənə verilən son məlumata görə, Ağdam rayonunda hazırda 93 min insan yaşayır. Onların bir hissəsi hələ ki, öz doğma kəndlərində yaşamırlar, çünki kəndləri işğal altındadır, amma yenə də Ağdam rayonunun ərazisində yaşayırlar. Gün gələcək, onlar öz doğma kəndlərinə qayıdacaqlar, gün gələcək belə gözəl, möhtəşəm muğam mərkəzi Ağdam şəhərində yaradılacaqdır.**

**Mən sizi bir daha salamlayıram və bu mərkəzin açılışı münasibətilə təbrik edirəm".**

* * *

Xalq artisti Arif Babayev, Xalq artisti Mənsum İbrahimov, Xalq artisti Aygün Bayramova və Xalq artisti tarzən Ramiz Quliyev Ağdamda Muğam Mərkəzinin istifadəyə verilməsinə göstərdikləri dəstəyə görə Prezident İlham Əliyevə və birinci xanım, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya minnətdarlıqlarını bildiriblər.

Birinci xanım, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva çıxış edərək deyib: **"Əziz dostlar, ilk növbədə, mənim fəaliyyətim haqqında dediyiniz sözlərə görə sizə dərin minnətdarlığımı bildirirəm. Əlbəttə, muğam sənəti haqqında çox danışmaq olar.**

davamı 3-cü səhifədə

# Azərbaycan Prezidenti İlham Əliyev Ağdam rayonuna səfər edib

əvvəli 2-ci səhifədə

**Muğam nadir sənətdir və Azərbaycanın ən böyük sərvətlərindən biridir. Bu gün biz muğam sənətinin inkişafı üçün atılan addımlar haqqında danışdıq. Yəqin ki, siz xatırlayırsınız, Heydər Əliyev Fondunda biz ilk dəfə bərabər toplaşdıq və bu proqramları, gələcək planlarımızı birgə müzakirə etdik və sonra həyata keçirməyə başladıq. Mən sizin hər birinizə dərin minnətdarlığımı bildirmək istəyirəm. Çünki bütün bu nailiyyətlər bizim birgə fəaliyyətimiz nəticəsində mümkün olub. Biz doğrudan da vahid bir komanda kimi çalışırdıq və hər bir yeni ideyanı müzakirə edirdik, fikirləşirdik ki, müsabiqələri necə keçirək, növbəti addım hansı olsun. Bu gün qeyd etdiyimiz bütün bu addımlar yalnız və yalnız sizin dəstəyinizlə, iştirakınızla mümkün olub. Mən buna görə sizə dərin minnətdarlığımı bildirirəm. Çox sağ olun".**

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva səfər çərçivəsində "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Ağdam filialının açılışında iştirak ediblər.

Dövlətimizin başçısı "Azərxalça" ASC-nin Ağdam filialının rəmzi açılışını bildirən lenti kəsib.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva XIX əsrdə, eləcə də XX əsrin əvvəllərində Qarabağın müxtəlif bölgələrində toxunan nadir xalçalara baxıblar.

"Azərxalça" Açıq Səhmdar Cəmiyyəti İdarə Heyətinin sədri Vidadi Muradov görülən işlərlə bağlı məlumat verib.

Dövlətimizin başçısı və birinci xanım xalçaçılarla görüşüblər.

Xalçaçıları salamlayan Prezident İlham Əliyev deyib: **"Sizi bu gözəl xalça fabrikinin açılışı münasibətilə təbrik edirəm. Bu, sayca yeddinci fabrikdir. Proqramımızda Azərbaycanda 30 xalça fabrikinin tikilməsi nəzərdə tutulub, yeddincisi bu gün açılır. Çox şadam ki, biz Ağdam rayonunda buna nail ola bilmişik. Burada sizin üçün gözəl şərait, 150 iş yeri yaradılıb, işləyənlər də qadınlardır. Siz həm gözəl sənətimizi yaşadırsınız, həm də gözəl əsərlər yaradırsınız. Bu işlərə gənc qızlarımızı cəlb edirsiniz. Sizin fəaliyyətiniz çox yüksək qiymətə layiqdir. Ağdamın qədim xalçaçılıq məktəbi var. Burada qədim xalçalar da nümayiş etdirilir. İndi Sizin də əl işləriniz göz qabağındadır. Ona görə ki, xalça sənəti bu gün milli sənətimizdir, milli sərvətimizdir. Biz yaşadırıq, yaşadacağıq. Sizin kimi insanlar, əlbəttə ki, bu gözəl sənəti əbədi yaşadacaqlar. Sizi ürəkdən təbrik edirəm".**





"Azərxalça" ASC-nin Ağdam filialının direktoru, Əməkdar mədəniyyət işçisi Ceyran Əliyeva belə gözəl hədiyyəyə görə dövlətimizin başçısına və birinci xanıma xalçaçıların minnətdarlığını çatdıraraq deyib: **"Siz bu gün qədim Qarabağ, Ağdam torpağına xoş gəlmisiniz. Qarabağ tarixən dünyada ən çox üç sahə ilə tanınıb: Qarabağ xalçası, Qarabağ muğamı, Qarabağ atları. Ulu öndərimiz Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi dövrlərdə bu üç sahə Ağdamda həmişə inkişaf edib və dünyada şan-şöhrət qazanıb.**

**Biz 25 il idi ki, Ağdamda Qarabağ xalçaları toxumurduq. Biz Bərdədə şəraitsiz yerdə müəyyən vaxt işlədikdən sonra bu sənətdən ayrılmışdıq. Sizin Sərəncamınızla Ağdamda, Quzanlı qəsəbəsində bu böyük müəssisə yaradılıb və bu gün biz Qarabağ xalçaçılarının ixtiyarına verilib. Buna görə, cənab Prezident, Sizə və Mehriban xanıma çox dərin təşəkkürümüzü və minnətdarlığımızı bildiririk.**

**Mehriban xanım, Sizin Azərbaycan xalçaçılıq sənətinin inkişafında və dünyada təbliğində misilsiz xidmətləriniz var. Sizin təşəbbüsünüzlə Azərbaycan xalçaçılıq sənəti UNESCO-nun qeyri-maddi mədəni irs üzrə siyahısına daxil edilib. Buna görə biz Qarabağ xalçaçıları adından Sizə təşəkkür edirik.**

**Bizim Ağdamda çox böyük xalça fabrikimiz var idi. 1980-ci illərdə Ulu öndərin Sərəncamı ilə tikilmişdi. Hətta Xocalıda, Şuşada, Ağdərə rayonunun Baş Güneypəyə kəndində, Ağdamın dörd kəndində bizim filiallarımız var idi. Orada 600 nəfərə qədər xalçaçı çalışırdı. Mənfur ermənilər rayonu işğal edəndən sonra biz Ağdamdan ayrıldıq.**

**Cənab Prezident, bu sənət Sizin Sərəncamınızla bu gün yenidən bərpa olunub. Ermənilər heç vaxt deyə bilməz ki, Qarabağ xalçaları onlarındır. Bir dəfə bir jurnalist mənə dedi ki, hansısa xarici ölkədə ermənilər Qarabağ xalçasını özlərininki kimi təqdim ediblər. Dedim ki, Qarabağ xalçasını qarabağlılardan başqa heç kəs toxuya bilməz".**

**Prezident İlham Əliyev.** Bəli, düzdür.

**Ceyran Əliyeva:** Bu gün biz Qarabağ xalçaçıları Sizə çox böyük təşəkkür edirik. Ancaq bu, son olmayacaq. Əminəm ki, Sizin həyata keçirdiyiniz daxili və xarici siyasət nəticəsində torpaqlarımız işğaldan azad olunacaq. Biz yenidən Şuşada, Ağdamda, Xocalıda xalça sexləri açacaq, bu müəssisəni Quzanlı sakinlərinə verərək, gedib Ağdamda işləyəcəyik.

Mehriban xanım, biz Ağdamdan çıxarkən mən bir yadigar yaylıq gətirmişəm. Bu gün həmin yaylığı Sizə təqdim etmək istəyirəm.

Ceyran Əliyeva yaylığı birinci xanım Mehriban Əliyevaya təqdim edib.

**Birinci xanım Mehriban Əliyeva:** Çox sağ olun.

**Prezident İlham Əliyev:** Bu gün Ağdamda, Quzanlıda möhtəşəm Muğam Mərkəzi açıldı. İndi xalça fabriki açılır. Bu gün Ağdam Atçılıq Mərkəzinin də açılışı olacaq. Ona görə biz Ağdamı dünyada məşhur edən bu üç istiqamət üzrə bu gözəl tədbirləri bir gündə keçiririk. Bu gözəl xalça fabrikinin yaradılması münasibətilə sizi bir daha ürəkdən təbrik edirəm.

**Xalçaçılar:** Çox sağ olun.

Sonra birinci xanım Mehriban Əliyeva müəssisədə toxunan ilk xalçanı kəsib.

* * *

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam rayonunda səfərdə olarkən yolüstü Ağcabədi rayonunun Hindarx qəsəbəsində Əsmər Hüseynovanın pambıq sahəsi ilə tanış olublar.

Ağcabədi rayon İcra Hakimiyyətinin başçısı Şahin Məmmədov və pambıqçı Əsmər Hüseynova təsərrüfatda görülən işlər barədə Prezident İlham Əliyevə məlumat veriblər.

Dövlətimizin başçısı pambıqçılarla söhbət edib.

**Prezident İlham Əliyev:** Salam, xoş gördük.

**Pambıqçılar:** Xoş gəlmisiniz.

**Prezident İlham Əliyev:** Burada yaxşı pambıq yetişdirmisiniz. Məhsuldarlıq yaxşı olmalıdır. Görün, bir qoza nə boydadır. 2016-cı ildə pambığın kiloqramının qiyməti 41 qəpik idi, qaldırdıq 50 qəpiyə. Bu il isə 65 qəpiyə qaldırmışıq. Bunu ona görə edirik ki, siz daha çox pul qazanasınız.

**Pambıqçılar:** Çox sağ olun, Allah Sizi qorusun.

**Prezident İlham Əliyev:** İndi pambıqçılıq sürətlə inkişaf edir. Bu il bu günədək 200 min ton pambıq tədarük olunub. Keçən il bu vaxt təxminən 160 min ton idi, bu il 200 min ton. Əgər yığım kampaniyamız belə davam etsə, deməli, təxminən 260 min ton pambıq tədarük ediləcək. Pambıqçılıqda 190 min insan işləyir, pul qazanır, həm öz ailə büdcəsini yaxşılaşdırır, həm də dövlətə xeyir verir.

**Pambıqçılar:** Bəli, Allah köməyiniz olsun. Sizin sayənizdə ailələrimizin yanında alnıaçıq, üzüağıq.

**Prezident İlham Əliyev:** İndi adambaşına orta hesabla nə qədər pambıq yığırsınız?

**Pambıqçılar:** Bir gündə hərəyə 110-120 kiloqram yığırıq.

**Prezident İlham Əliyev:** Bir gündə 120 kiloqram?

**Pambıqçılar:** Bəli, cənab Prezident, bir gündə.

**Prezident İlham Əliyev:** 120 kiloqram yığırsınızsa, deməli, nə qədər qazancınız olur?

**İcra hakimiyyətinin başçısı Şahin Məmmədov:** İyirmi manatdan çox edir - 24 manat. Bir evdən tarlaya beş adam çıxırsa, hərəsi 100 kiloqram yığsa, axşam 100 manat pul aparır.

**Prezident İlham Əliyev:** 100 manat, hər gün bir evə?

**Pambıqçılar:** Bəli, hər gün.

**Prezident İlham Əliyev:** Yaxşıdır.

**Şahin Məmmədov:** Keçən il bugünkü tarixə biz 15 min 783 ton pambıq yığmışdıq. Amma bu gün 20 min tona çatmışıq. Keçən ilin müvafiq dövründəkindən təqribən 5 min ton artıq təhvil vermişik.

**Prezident İlham Əliyev:** Sizdə əkin sahəsi 10 min hektardır. Əgər 20 min ton vermisinizsə, deməli, 20 sentneri siz artıq təmin etmisiniz.

**Şahin Məmmədov:** 20,8 sentner vermişik.

**Prezident İlham Əliyev:** Amma yığım hələ davam edəcək.

**Şahin Məmmədov:** Bəli, biz bu günədək keçən il bütün mövsüm ərzində yığdığımızdan çox pambıq vermişik. Keçən il mövsüm ərzində 20 min 497 ton pambıq yığmışdıq.

**Prezident İlham Əliyev:** Bəs, ümumiyyətlə, rayon üzrə hektardan məhsuldarlıq nə qədər gözlənilir?

**Şahin Məmmədov:** Hektardan 27-28 sentner. Ötən il 21,5 sentner idi.

**Prezident İlham Əliyev:** 27-28 sentner, çox gözəl, çox yaxşı. Texnika da var, görürəm, biz yüzlərlə texnika almışıq. Demək olar ki, burada ilboyu iş var.

**Şahin Məmmədov:** Bəli, ilboyu, şumdur, aratdır, maladır, sonra çiyidin səpilməsidir.

**Prezident İlham Əliyev:** Bəli, həm məşğulluq, həm də yaxşı qazanc.

**Pambıqçılar:** Bəli, cənab Prezident, qazancımız yaxşıdır.

* * *

Sonda xatirə şəkli çəkdirilib.

Dövlətimizin başçısı məhsulun vaxtında və itkisiz toplanması ilə bağlı müvafiq tapşırıqlarını verib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kənd Təsərrüfatı Nazirliyinin Heyvandarlıq Elmi-Tədqiqat İnstitutunun tabeliyindəki "Qarabağ Atçılıq Təsərrüfatı" Məhdud Məsuliyyətli Cəmiyyətinin Qarabağ Atçılıq Kompleksinin açılışında iştirak ediblər.

Prezident İlham Əliyev müəssisənin rəmzi açılışını bildirən lenti kəsib.

Kənd təsərrüfatı naziri İnam Kərimov ölkəmizdə atçılığın inkişafı istiqamətində görülən işlər, kompleksdə yaradılan şərait barədə məlumat verib.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva qapalı manejdə yaradılan şəraitlə tanış olublar.

Burada Qarabağ atlarının tarixi ilə bağlı sərgi də təşkil edilib.

Qarabağ Atçılıq Kompleksinin direktoru Maarif Hüseynov məlumat verib ki, vaxtilə Qarabağ xanları Pənah xanın, İbrahim xanın, Mehdiqulu xanın, Cəfərqulu xanın, Xurşidbanu Natəvanın və xan zümrəsinə daxil olan digər sülalələrin nümayəndələrinə məxsus zavod və tövlələrdə klassik zavod atçılığı səviyyəsində damazlıq işləri aparılaraq cinsin tipik nümunələrinin yetişdirildiyini görmək mümkündür. Tipik dağ minik atı olan Qarabağ atlarının əsas üstünlükləri dözümlülük və sahibinə sədaqət hesab olunur. Əsasən qızılı-kürən və kəhər rəngli, ortaboylu, ilxı şəraitinə davamlı olan Qarabağ atları bir çox beynəlxalq sərgilərdə təmsil olunub və uğurlu nəticələr qazanıb. Belə ki, 1867-ci ildə Fransada keçirilən sərgidə "Xan" ləqəbli Qarabağ atı yüksək mükafata, 1869-cu ildə Ümumrusiya at sərgisində "Maymun" ləqəbli at gümüş, "Toxmaq" adlı at bürünc medallara, Xan qızı Natəvanın "Əlyetməz" adlı atı isə attestata layiq görülüb. Qarabağ atları Rusiyaya, həmçinin Avropanın bir sıra ölkələrinə aparılıb, at cinslərinin, o cümlədən Kabardin və Don atlarının cins tərkibinin yaxşılaşdırılmasına təsiri olub.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva qapalı manejdə Azərbaycanın qədim milli "Sür-papaq" atüstü oyununa baxıblar.

Dövlətimizin başçısı və xanımı kompleksin tövlələrində yaradılan şəraitlə də tanış olublar.

Dövlətimizin başçısı və birinci xanım kompleksin açıq manejində Dövlət Sərhəd Xidmətinin Atçılıq Mərkəzinin "Süvarilər" qrupunun nümunəvi çıxışlarına da baxıblar.

Sonra xatirə şəkli çəkdirilib.

## Prezident İlham Əliyev Səudiyyə Ərəbistanının daxili işlər nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 4-də Səudiyyə Ərəbistanı Krallığının daxili işlər naziri şahzadə Əbdüləziz bin Səud bin Nayif Al Səudun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Azərbaycan Respublikası ilə Səudiyyə Ərəbistanı Krallığı arasında əlaqələrin çox yüksək səviyyədə olduğunu qeyd edərək, özünün Səudiyyə Ərəbistanına səfəri və səfər zamanı Kral Həzrətləri və digər rəhbər şəxslər ilə aparılan müzakirələri məmnunluqla yad edib, bu müzakirələrin əlaqələrimizin inkişafı üçün önəmli rol oynadığını bildirib. Prezident İlham Əliyev deyib ki, ölkələrimiz müxtəlif sahələrdə uğurlu əməkdaşlıq edir, siyasi əlaqələr çox yüksək səviyyədədir və beynəlxalq təşkilatlar çərçivəsində daim bir-birini dəstəkləyir. Dövlətimizin başçısı bildirib ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Səudiyyə Ərəbistanının ədalətli və qardaşlıq hisslərinə əsaslanan mövqeyi Azərbaycanda çox böyük minnətdarlıq hissi ilə qarşılanır. Prezident İlham Əliyev vurğulayıb ki, Azərbaycan xalqı Səudiyyə Ərəbistanının bu münaqişə və işğala görə Ermənistanla heç bir əlaqə yaratmadığını yaxşı bilir və bu, bizim dostluğumuzun, qardaşlığımızın bariz nümunəsidir.

İqtisadi sahəyə toxunan Prezident İlham Əliyev son zamanlar bu istiqamətdə inkişafla bağlı çox ciddi addımların atıldığını deyib və gələcək illərdə sərmayə qoyuluşu və ticarət dövriyyəsinin artırılması ilə əlaqədar daha geniş tədbirlərin həyata keçiriləcəyinə əminliyini ifadə edib. Son vaxtlar Səudiyyə Ərəbistanından Azərbaycana gələn turistlərin sayının dəfələrlə artdığını qeyd edən Prezident İlham Əliyev bunu dostluğumuzun növbəti təzahürü kimi dəyərləndirib. Dövlətimizin başçısı qeyd edib ki, ölkələrimizin təhlükəsizlik sahəsində əməkdaşlığı da yaxşı səviyyədədir. Prezident İlham Əliyev əminliyini bildirib ki, Səudiyyə Ərəbistanı Krallığının daxili işlər naziri şahzadə Əbdüləziz bin Səud bin Nayif Al Səudun bu səfəri ölkələrimiz arasında əməkdaşlığın, o cümlədən Daxili İşlər nazirlikləri arasında əlaqələrin inkişafına öz töhfəsini verəcək.

Xoş sözlərə görə minnətdarlığını bildirən Səudiyyə Ərəbistanı Krallığının daxili işlər naziri şahzadə Əbdüləziz bin Səud bin Nayif Al Səud, ilk növbədə, İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səudun və Səudiyyə Ərəbistanı Krallığının Vəliəhdi Məhəmməd bin Salman bin Əbdüləziz Al Səudun salamlarını dövlətimizin başçısına çatdırıb. O qeyd edib ki, ölkələrimiz arasında ikitərəfli münasibətlər getdikcə inkişaf edir, müxtəlif məsələlərə dair yüksək səviyyəli koordinasiya mövcuddur. Səudiyyə Ərəbistanının Azərbaycan üçün qardaş, yaxın və strateji tərəfdaş ölkə olduğunu vurğulayan qonaq ölkələrimizin Daxili İşlər nazirlikləri arasında da əməkdaşlığın yüksək səviyyədə olduğunu deyib. Bu baxımdan qonaq Azərbaycanın daxili işlər nazirinin Səudiyyə Ərəbistanı Krallığına səfəri zamanı iki ölkə arasında təhlükəsizlik sahəsində əməkdaşlığa dair imzalanmış sazişin önəmini vurğulayıb.

Prezident İlham Əliyev Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səudun və Səudiyyə Ərəbistanı Krallığının Vəliəhdi Məhəmməd bin Salman bin Əbdüləziz Al Səudun salamlarına görə təşəkkür edib, Onun da salamlarını Səudiyyə Ərəbistanının Kralına və Vəliəhdinə çatdırmağı xahiş edib.

## Prezident İlham Əliyev Fələstinin xarici işlər nazirini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 4-də Fələstin Dövlətinin xarici işlər naziri Riad Əl-Malikini qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Azərbaycanın Fələstin məsələsinə münasibətdə daim həmrəylik nümayiş etdirdiyini və dəstəyini əsirgəmədiyini qeyd edərək, noyabrın 5-də Bakıda keçiriləcək Fələstin Dövlətinin Asiya ölkələrindəki səfirlərinin toplantısına Azərbaycanın ev sahibliyi etməsinin bunun bariz nümunəsi olduğunu vurğulayıb. Prezident İlham Əliyev Azərbaycanın BMT-nin müvafiq qətnamə və qərarlarına uyğun olaraq Fələstin məsələsinin iki dövlət prinsipi əsasında həllini dəstəklədiyini və bu mövqenin beynəlxalq təşkilatlar çərçivəsində birmənalı şəkildə ifadə olunduğunu qeyd edib. Dövlətimizin başçısı Azərbaycanın İslam həmrəyliyinin gücləndirilməsinə ardıcıl sürətdə töhfə verdiyini bildirib.

Fələstin Dövlətinin xarici işlər naziri Riad Əl-Maliki Fələstin Prezidenti Mahmud Abbasın salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırıb. O, Azərbaycanın Fələstin Dövlətinin Asiya ölkələrindəki səfirlərinin toplantısına və əvvəlki illərdə Fələstinlə əlaqədar müxtəlif humanitar tədbirlərə ev sahibliyi etdiyi üçün Prezident İlham Əliyevə Fələstin Dövləti adından dərin minnətdarlığını bildirib. Riad Əl-Maliki dövlətimizin başçısının 2017-ci il dekabrın 13-də İstanbulda keçirilmiş İslam Əməkdaşlıq Təşkilatının Qüds məsələsi ilə bağlı fövqəladə Zirvə toplantısında iştirakı və çıxışının yüksək qiymətləndirildiyini vurğulayıb. Fələstin Dövlətinin xarici işlər naziri Riad Əl-Maliki Azərbaycanın beynəlxalq ictimaiyyətdə böyük hörmət və nüfuza malik dövlət olduğunu deyərək, ölkəmizin 2019-2022-ci illərdə Qoşulmama Hərəkatına uğurlu sədrlik edəcəyinə əminliyini ifadə edib.

Prezident İlham Əliyev Fələstin Dövlətinin Prezidenti Mahmud Abbasın salamlarına görə minnətdarlığını bildirib, Onun da salamlarını Fələstin Prezidentinə çatdırmağı xahiş edib.

# Milli Məclis komitələrinin birgə iclasında 2019-cu ilin büdcə zərfi müzakirə olunub

Noyabrın 5-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə, Təbii ehtiyatlar, energetika və ekologiya, Aqrar siyasət, İctimai birliklər və dini qurumlar komitələrinin birgə iclasında "2019-cu il dövlət büdcəsi haqqında", "2019-cu il üçün yaşayış minimumu haqqında", "2019-cu il üçün ehtiyac meyarının həddi haqqında", "Dövlət Sosial Müdafiə Fondunun 2019-cu il büdcəsi haqqında" qanun layihələri, Milli Məclisin və Hesablama Palatasının növbəti il üçün xərclər smetaları müzakirəyə çıxarılıb.

AZƏRTAC xəbər verir ki, iclasda çıxış edən İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə Azərbaycanda uğurlu islahatların davam etdirildiyini söyləyib. Bildirilib ki, Azərbaycanda iqtisadi fəaliyyətin son 15 ildəki nəticələri kifayət qədər möhtəşəm rəqəmlərlə xarakterizə olunur. Azərbaycan iqtisadiyyatı özünün yeni inkişaf mərhələsinə keçir.

Ziyad Səmədzadə qeyd edib ki, qloballaşan dünyada, risklərin artdığı bir şəraitdə Azərbaycan iqtisadiyyatı davamlılığını nümayiş etdirir. Heç şübhəsiz, bu nailiyyətlərin əldə olunmasında Prezident İlham Əliyev tərəfindən aparılan düşünülmüş iqtisadi siyasət, ölkənin milli maraqlarına cavab verən iqtisadi inkişaf strategiyası dayanır. Dövlət Büdcəsi bütün bu nailiyyətlərin əldə olunmasında mühüm bir vasitədir. Büdcənin hazırlanmasında iştirak edən strukturlar bu məsələyə kifayət qədər məsuliyyətlə yanaşırlar. Məhz belə yanaşmanın nəticəsidir ki, Azərbaycanın dövlət büdcəsinin parametrləri, göstəriciləri ildən-ilə təkmilləşir, yaxşılaşır.

İclasda çıxış edən maliyyə naziri Samir Şərifov bildirib ki, Azərbaycan Respublikasının 2019-cu il icmal və dövlət büdcələrinin layihələri büdcə sistemi haqqında Azərbaycan Respublikasının Qanunundan irəli gələn tələbləri, Prezident İlham Əliyevin müəyyən etdiyi ölkənin strateji inkişaf prioritetləri və sosial iqtisadi siyasət hədəfləri, qlobal iqtisadiyyatda gedən proseslərin icmal və dövlət büdcələrinin əsas parametrlərinə ehtimal olunan təsirləri nəzərə alınmaqla tərtib olunub. Bu amillərlə yanaşı, proqnozlaşdırma zamanı Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin hazırladığı 2019-2022-ci illər üzrə ölkənin makroiqtisadi proqnoz göstəriciləri və gözlənilən iqtisadi meyillər, o cümlədən 2019-cu ildə ümumi daxili məhsulun 3,6 faizlik, qeyri-neft sektorunda isə 3,9 faizlik real artım sürəti, dövlət büdcəsi və Dövlət Neft Fondunun gəlirlərinin hesablanmasında isə bir barrel xam neftin satış qiyməti 60 ABŞ dolları səviyyəsində qəbul edilib.

Nazir deyib ki, dünya əmtəə bazarlarında neftin qiyməti ilə bağlı müşahidə olunan müəyyən sabitləşmə və artım proseslərinin ölkə iqtisadiyyatına müsbət təsiri ehtimal olunsa da, regiondakı iqtisadi təlatümlərin ölkə iqtisadiyyatına potensial mənfi təsirləri nəzərdən qaçırılmamalıdır. Belə ki, qonşu ölkələr və əsas ticarət tərəfdaşlarımızın valyutalarının ucuzlaşması Azərbaycan manatının məzənnəsinin dəyərlənməsinə təzyiqləri artırır. Bu, bir tərəfdən yerli istehsalçıların ixrac rəqabətliliyinin azalması digər tərəfdən isə idxalın artımı risklərini aktuallaşdırır.

**"Yuxarıda sadalanan xarici mənşəli makro iqtisadi təhdidlərin ölkə iqtisadiyyatına sirayət etməsinin qarşısının alınması 2019-cu ildə həyata keçiriləcək monetar və fiskal siyasətin əsas prioritetlərindən biri kimi gündəlikdə durmaqdadır. Bununla əlaqədar, büdcənin sabitliyi və orta müddətli dayanıqlılığının təmin edilməsi xüsusi əhəmiyyət kəsb edir",** - deyə maliyyə naziri qeyd edib. Diqqətə çatdırılıb ki, 2019-cu ilin dövlət büdcəsinin tərtibindən başlayaraq növbəti illərin icmal və dövlət büdcələri yeni qəbul edilmiş büdcə qaydasına uyğun olaraq hazırlanacaq. Qaydanın tətbiqi neft qiymətlərinin artması və enməsi zamanı dövlət xərclərinin prosiklikliyinin qaldırılmasını və dayanıqlı olmasını tələb edir. Bu əsasda icmal büdcənin xərclərinin yuxarı həddi üzrə məhdudiyyət tətbiq olunur.

Nazir bildirib ki, təqdim olunmuş sənədlərdə icmal büdcənin xərcləri 27 milyard 372 milyon manat, dövlət büdcəsinin xərcləri isə 24 milyard 780 milyon manatdır. Dövlət Neft Fondundan transfert isə 11 milyard 364 milyon manat müəyyən edilib. İcmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ümumdaxili məhsula nisbəti 30 faizədək, yəni cari ilin göstəricisi ilə müqayisədə 1,7 faiz bənd azaldılır. Bu da artıq büdcə qaydasının işə salınmasının əyani göstəricisidir.



2019-cu ildən etibarən büdcə vergi siyasətində bir sıra vacib dəyişikliklərin ediləcəyini bildirən nazir deyib: **"Bunlar əsasən, büdcənin sabitliyi və uzunmüddətli dayanıqlılığının təmin edilməsi, şəffaflığın, ortamüddətli maliyyə proqnozlaşdırılmasının effektivliyinin və səmərəliyinin və eyni zamanda, maliyyə nəzarətinin və monitorinqinin tətbiq edilməsinə yönəlib. Hesab edirik ki, 2019-cu ildən büdcənin sabitliyinin və uzunmüddətli dayanıqlığının təmin edilməsi məqsədilə yeni büdcə qaydasının tətbiqi və büdcə xərclərinə müəyyən məhdudiyyətin qoyulması büdcənin dayanıqlılığına xidmət göstərəcək".**

Samir Şərifov diqqətə çatdırıb ki, 2019-cu ildə ortamüddətli dövrdə icmal büdcənin qeyri-neft və baza kəsirinin qeyri-neft ümumdaxili məhsula nisbətinin azaldılması hədəflənir. Bu hədəf dövlət büdcəsinin layihəsində öz əksini tapıb. Ortamüddətli maliyyə proqnozlaşdırılmasına keçidi təmin etmək məqsədilə 2019-cu ildən etibarən ölkənin müəyyən etdiyi iqtisadi və sosial-inkişaf tələblərini özündə əks etdirən ortamüddətli xərclərin çərçivəsinin hazırlanmasına başlanılacaq. Bu, hesab edirəm ki, keyfiyyət baxımından irəliyə doğru atılan çox mühüm addımdır.

Nazir qeyd edib ki, dövlət büdcəsində nəzərdə tutulan bütün sosial öhdəliklər, əsas dövlət proqramları, həmçinin təhsil, səhiyyə, sosial, mədəniyyət və idman sahələri ilə bağlı infrastruktur layihələri üçün maliyyə təminatı yaradılacaq. Hesab edirik ki, bu qərar dövlət büdcəsinin əsas parametrlərinin həyata keçirilməsi üçün dövlət büdcəsinin daxilolmalar hissəsində əhəmiyyətli dəyişikliklərin baş verməsini təmin edəcək. İlk növbədə, qeyd etməliyəm ki, neft-qaz sahəsində fəaliyyəti olmayan və qeyri-dövlət sektoruna aid edilən vergiödəyicilərinə muzdlu işdən aylıq gəlir vergisi üzrə 7 il müddətində güzəşt tətbiq olunacaq. Bununla bağlı Vergi Məcəlləsinə müvafiq dəyişikliyin edilməsi ilə əlaqədar layihə təqdim olunub. Vergi islahatlarının digər mühüm istiqaməti göstərilən güzəştin alıcıları üçün məcburi dövlət sosial sığorta haqları üzrə ümumi yükün bir hissəsinin işçinin üzərinə ötürülməsidir. Əvvəlki pensiya islahatı ilə bağlı konsepsiyada da bu meyar öz əksini tapıb.

Maliyyə naziri 2019-cu ilin icmal və dövlət büdcələrinin əsas parametrləri barədə məlumat verərək bildirib ki, 2019-cu ilin icmal büdcəsi 2 milyard 352 milyon manat məbləğində profisitdə proqnozlaşdırılır. İcmal büdcənin gəlirləri xərclərini üstələyəcək. İcmal büdcənin gəlirləri 29 milyard 725 milyon manat məbləğində proqnozlaşdırılır, xərcləri isə 27 milyard 372 milyon manat məbləğində nəzərdə tutulub. İcmal büdcəyə daxil olan Dövlət Neft Fondunun büdcəsinin xərcləri transfert nəzərə alınmaqla 11 milyard 364 milyon manat məbləğində proqnozlaşdırılır. Dövlət Sosial Müdafiə Fondunun gəlirləri və xərcləri bərabər olaraq 3 milyard 928 milyon manat və ya cari ilə nisbətən 349 milyon manat, yəni 9,8 faiz çox olacaq. Həmin vəsaitin 38,3 faizi və ya 1 milyard 503 milyon manatı Fondun büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərini təmin edəcək transfertdən ibarət olacaq. Bu da cari ilin proqnozu ilə müqayisədə 203 milyon manat və ya 15,6 faiz çoxdur.

Qeyd edilib ki, icmal büdcənin tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının büdcəsinin gəlir və xərcləri bərabər olmaqla, 384 milyon manat məbləğində proqnozlaşdırılır. Xərclərin 84 milyon manatını muxtar respublikanın öz gəlirləri, 300 milyon manatını isə dövlət büdcəsindən ayrılan dotasiya hesabına maliyyələşdirilməsi nəzərdə tutulur. 2019-cu il üçün dövlət büdcəsinin gəlirləri ümumi daxili məhsulun 28 faizi həcmində olmaqla, mütləq ifadədə 22 milyard 918 milyon manat təşkil edəcək. Bu da cari illə müqayisədə 769 milyon manat və ya 3,5 faiz çoxdur. Gəlirlərin 9 milyard 217 milyon manatı və ya 40,2 faizi qeyri-neft sektoru üzrə daxilolmaların, 13 milyard 700 milyon manatı və ya 59,8 faizi neft gəlirlərinin payına düşəcək. 2019-cu ildə Vergilər Nazirliyinin xətti ilə proqnozlaşdırılan daxilolmalar 7 milyard 316 milyon manat, Dövlət Gömrük Komitəsi xətti ilə proqnozlaşdırılan daxilolmalar isə 3 milyard 452 milyon manat səviyyəsində qiymətləndirilir. Büdcə təşkilatlarının ödənişli xidmətləri hesabına 627 milyon manat, digər daxilolmalar üzrə 159 milyon manat vəsaitin daxil olacağı nəzərdə tutulur.

Samir Şərifov bildirib ki, 2019-cu il dövlət büdcəsinin xərclərinin tərtibi zamanı ölkəmizin uzunmüddətli sosial iqtisadi inkişafının prioritet istiqamətlərindən olan əhalinin aztəminatlı təbəqələrinin sosial müdafiəsinin, dövlətin milli təhlükəsizliyinin və müdafiə qabiliyyətinin gücləndirilməsi, kənd təsərrüfatının, qeyri-neft sektorunun stimullaşdırılması, təhsil, səhiyyə, sosial, mədəniyyət, idman və fiziki infrastruktur layihələrinin, dövlət borcu və beynəlxalq təşkilatlara üzvlük haqlarının ödənilməsi ilə bağlı məsələlərin maliyyə təminatı nəzərə alınıb. 2019-cu il dövlət büdcəsinin xərcləri ümumi daxili məhsulun 30 faizi həcmində olmaqla mütləq ifadədə 24 milyard 780 milyon manat təşkil edəcək. Dövlət büdcəsi xərclərinin 12 milyard 554 milyon manatı və ya 50,7 faizi cari xərclərə, 9 milyard 891 milyon manatı və ya 39, 9 faizi əsaslı xərclərə, 2 milyard 335 milyon manatı və ya 9,4 faizi dövlət büdcəsinə xidmətlə bağlı xərclərə yönəldiləcək. 2019-cu ilin dövlət büdcəsinin xərclərində konkret proqram və tədbirlərin maliyyələşməsi üçün 10 milyard 314 milyon manat və ya 41,6 faiz həcmində dövlət büdcəsindən vəsait yönəldiləcək. Bu da cari illə müqayisədə 2 milyard 77 milyon manat və ya 25,2 faiz çoxdur.

Əvvəlki illərdə olduğu kimi, 2019-cu ildə də xərclərin sosialyönümlü olması diqqətdə saxlanılıb. Belə ki, növbəti ildə sosial tədbirlərə aid olan elm, təhsil, səhiyyə, sosial təminat, mədəniyyət, gənclər siyasəti ilə bağlı xərclərə 6 milyard 369 milyon manat vəsait sərf ediləcək. Bu da cari illə müqayisədə 787 milyon manat, yəni 14,1 faiz çoxdur. Sosial tədbirlərin xərclərinin dövlət büdcəsi xərcləri tərkibində xüsusi çəkisi cari illə müqayisədə 1,5 faiz bənd artaraq 25,7 faizə, ümumi daxili məhsula nisbətdə isə 0,5 faiz bənd artaraq 7,8 faizə çatacaq. Bu sahələr üzrə Dövlət proqramlarının və məqsədli tədbirlərinin maliyyə təminatı üçün 888 milyon manat vəsait sərf ediləcək. Qeyd olunmalıdır ki, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin 2019-cu il üçün müəyyən etdiyi Dövlət İnvestisiya Proqramının layihəsində ilkin olaraq sosialyönümlü layihələrə investisiya qoyuluşu xərclərinin 14,1 faiz həcmində və yaxud 1 milyard manata yaxın vəsaitin yönəldilməsi nəzərdə tutulub.

Növbəti ildə dövlət büdcəsindən qaçqınların və məcburi köçkünlərin sosial müdafiəsi ilə bağlı xərclər dövlət investisiya xərcləri nəzərə alınmadan 262 milyon manat məbləğində proqnozlaşdırılır. Bu da cari illə müqayisədə 7 faiz çoxdur. Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamına əsasən ərazi bütövlüyü uğrunda həlak olmuş və hərbi əməliyyatlarda itkin düşmüş hərbi qulluqçuların ailə üzvlərinə cari ildə başlanılmış birdəfəlik ödənişlərin verilməsinin növbəti ildə də davam etdirilməsi nəzərdə tutulur və bu məqsədlərə 50 milyon manat vəsait ayrılır.

Nazir deyib: **"Müzakirəyə çıxarılmış 2019-cu il üçün dövlət və icmal büdcə layihələri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin daim prioritet hədəf kimi qəbul etdiyi əhalinin sosial müdafiəsinin və yaşayış səviyyəsini yüksəldilməsi, ölkəmizin təhlükəsizliyinin və müdafiə qabiliyyətinin təmin edilməsi və iqtisadi inkişafının stimullaşdırılması üçün maliyyə təminatının yaradılmasına xidmət edir".**

Sonra çıxış edən iqtisadiyyat nazirinin müavini Şirzad Abdullayev diqqətə çatdırıb ki, Azərbaycan Respublikasının 2019-cu il və sonrakı üç il üzrə iqtisadi və sosial inkişaf konsepsiyası, proqnoz göstəriciləri büdcə sistemi haqqında mövcud qanunvericiliyin tələblərinə uyğun olaraq dünya iqtisadiyyatının inkişaf meyilləri, ölkənin sosial-iqtisadi inkişafı üzrə mövcud çağırışlar, strateji yol xəritələri, inkişaf konsepsiyaları və dövlət proqramları ilə müəyyən edilmiş tədbirlər nəzərə alınmaqla hazırlanıb. Bildirilib ki, əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan dayanıqlı inkişaf, uzunmüddətli ictimai-siyasi sabitlik Ümummilli liderin siyasi kursunun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi dövründə də təmin olunub. Dövlət mülkiyyətində olan müəssisələrlə bağlı islahatların həyata keçirilməsi, kiçik və orta sahibkarlıq fəaliyyəti üçün biznes mühitinin və tənzimləyici bazasının yaxşılaşdırılması, biznesin yeni dəstək mexanizminin yaradılması, xarici bazarlara çıxış imkanlarının artırılması və ixracın stimullaşdırılması insan kapitalının inkişaf etdirilməsi istiqamətində kompleks tədbirlər görülüb.

Ş.Abdullayev qeyd edib ki, 2019-cu ildə ÜDM-in 3,6 faiz, növbəti illərdə isə orta hesabla 3,4 faiz artacağı, tədiyə balansının cari hesabının müsbət olacağı, 3,9 milyard manat təşkil edəcəyi nəzərdə tutulur.

İqtisadiyyat nazirinin müavini bildirib ki, Azərbaycan Prezidentinin həyata keçirdiyi iqtisadi islahatların tərkib hissəsi olan investisiya təşviqi mexanizminin artıq bir neçə ildir təşviqi investisiyaların artımına ciddi töhfə verməkdədir. Səkkiz iqtisadi rayon üzrə layihələrə 2,7 milyard manat investisiya yatırılmaqla 21 mindən çox yeni iş yerlərinin açılması nəzərdə tutulur. İnvestisiya təşviqi sənədi almış 200-ə yaxın müəssisə artıq fəaliyyət göstərir, digərləri isə gələn ilin sonuna qədər fəaliyyətə başlayacaqlar. Bununla yanaşı, layihələrin ümumi dəyəri 2,5 milyard manat olan tikintisi davam etdirilən 181 istehsal və emal müəssisəsinin dövlət vəsaiti hesabına 132 milyon manat dəyərində infrastruktur təminatı yaradılıb.

Bildirilib ki, kompleks tədbirlər nəticəsində ölkə iqtisadiyyatının prioritet sahəsi olan qeyri-neft sektorunun artımının 2019-cu ildə 3,9 faiz, növbəti illərdə isə orta hesabla 3,5 faiz olması proqnozlaşdırılır. Cari ilin 9 ayında qeyri-neft sahəsinin əlavə dəyəri ikirəqəmli olmaqla 11 faiz təşkil edib, sahələşmə templəri yüksəlib, aparıcı və ənənəvi sahələrdən olan kimya, metallurgiya, maşınqayırma, inşaat materialları istehsalı, qida və digər istehsal sahələri genişlənib, yeni sahələr yaradılıb, bir sıra məhsullar üzrə idxaldan asılılıq kifayət qədər azalıb. Qeyri-neft sənayesinin inkişafında dövlətimizin başçısının rəhbərliyi ilə yaradılmış sənaye parkları və məhəllələri mühüm rol oynayıb.

İclasda çıxış edən vergilər naziri Mikayıl Cabbarov Vergi Məcəlləsinə təklif edilən dəyişikliklərin həll edəcəyi əsas problemlər və 2019-cu il üçün vergi siyasətinin başlıca istiqamətləri barədə məlumat verib.

Nazir deyib ki, 2019-cu ildə vergi siyasətinin 5 başlıca istiqaməti müəyyənləşib. Bunlar kölgə iqtisadiyyatının azaldılması və iqtisadiyyatın şəffaflaşdırılması, ikinci istiqamət olaraq vergi tutma bazasının genişləndirilməsi, sahibkarlığın və iqtisadi inkişafın dəstəklənməsi, vergiödəyicilərinin hüquqlarının genişləndirilməsi, vergi güzəştlərinin iqtisadi səmərəsinin yüksəldilməsi və vergi inzibatçılığının təkmilləşdirilməsidir. Vergi Məcəlləsinə edilən və təklif olunan bütün dəyişikliklər məhz bu istiqamətlərdən qaynaqlanır.

Azərbaycan Respublikası Dövlət Neft Fondunun icraçı direktoru Şahmar Mövsümov qeyd edib ki, son dövrlər dövlətimizin başçısının rəhbərliyi ilə ölkənin bütün sahələrində həyata keçirilmiş struktur islahatları, qeyri-neft sektorunun inkişaf etdirilməsi ilə bağlı məqsədyönlü siyasət sayəsində ölkəmiz dayanıqlı inkişaf yolunda uğurla irəliləyir. Ölkəmizdə formalaşmış inkişaf və maliyyə potensialı, o cümlədən cari ilin 10 ayının nəticələrinə əsasən, ölkənin 45 milyard dollara çatmış strateji valyuta ehtiyatları imkan verir ki, dünyada baş verən qlobal böhrana qarşı aparılan tədbirlər uğurla həyata keçirilsin, qarşıya çıxan iqtisadi, sosial, ekoloji və digər bu kimi məsələlərin sürətli həllinə nail olunsun.

Ş.Mövsümov qeyd edib ki, gələn il Fondun büdcəsinin baza göstəriciləri dövlət büdcəsində olduğu kimi, yəni neftin qiyməti 60 ABŞ dollarına bərabər götürülüb. Bu göstəriciyə uyğun olaraq Fondun gələn il üçün gəlirləri 15 milyard 579 milyon manat həcmində proqnozlaşdırılıb. Bu, 2017-ci ilin müvafiq icra göstəricisindən 28,4 faiz, 2018-ci ilin proqnozundan isə 1,8 faiz çoxdur.

Diqqətə çatdırılıb ki, gəlirlərin strukturunda ən böyük xüsusi çəkiyə Azərbaycanın payına düşən mənfəət neftin və qazın satışından əldə edilən xalis gəlirlər malikdir. Fondun gələn il üçün büdcəsində bu mənbə üzrə daxilolmalar 13 milyard 218 milyon manat təşkil edəcək. Fondun vəsaitlərinin idarə olunmasından əldə edilən gəlirlər 1 milyard 571 milyon manat proqnozlaşdırılır. Bu da 2017-ci ilin müvafiq icra göstəricisindən 45 faiz, 2018-ci ilin proqnozundan 29,2 faiz çoxdur.

Hesablama Palatasının sədri Vüqar Gülməmmədov bildirib ki, 2019-cu ilin dövlət büdcəsi ilə bağlı qanun layihəsi "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 16-cı maddəsinin tələblərinə uyğun tərtib edilib, sənəddə həmin maddə ilə müəyyən olunan bütün göstəricilər əksini tapıb. Qanun layihəsi ilə birgə təqdim edilən sənəd və məlumatlar isə "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 12-ci maddəsinin tələblərinə uyğun şəkildə hazırlanıb, müəyyən olunmuş müddətlərdə Hesablama Palatasına da təqdim edilib. Cari ildə "Büdcə sistemi haqqında" Qanuna büdcə qaydalarını müəyyən edən maddə əlavə olunub. Bu qaydaların məqsədi makroiqtisadi dayanıqlılığı, maliyyə və borc intizamını təmin etməkdən ibarətdir və büdcə siyasətinin həyata keçirilməsi üçün makroiqtisadi və büdcə göstəricilərini ifadə edir.

**"Beləliklə də, təqdim edilmiş qanun layihəsi, layihəni müşayiət edən sənəd və məlumatların qanunvericiliyin tələblərinə uyğun şəkildə tərtib edildiyini vurğulamaq istərdim",** - deyən V.Gülməmmədov diqqətə çatdırıb ki, 2019-cu ilin dövlət büdcəsinin layihəsi müstəqillik dövrünün manat ifadəsində ən böyük büdcəsi olaraq tərtib olunub və ilk dəfə olaraq, büdcə qaydaları nəzərə alınıb.

İclasda çıxış edən əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev bildirib ki, Azərbaycanda aparılan uğurlu sosial-iqtisadi siyasət nəticəsində ölkədə dayanıqlı sosial müdafiə və təminat sistemi yaradılıb. Azərbaycan Prezidentinin qeyd etdiyi kimi, görülən tədbirlərin, atılan bütün addımların, islahatların kökündə məhz Azərbaycan vətəndaşının sosial rifah halının, onların həyat şəraitinin daha da yaxşılaşdırılması durur. Dövlət Sosial Müdafiə Fondunun işi, Sığorta Fondunun gəlirləri və xərcləri haqqında məlumat verən nazir deyib ki, Fondun 2019-cu il üzrə büdcə gəlirləri 3 milyard 928 milyon manat məbləğində proqnozlaşdırılıb. Bu da 2018-ci ilin təsdiq olunmuş proqnozundan 9,7 faiz, 2018-ci ilin gözlənilən nəticəsindən isə 6,8 faiz daha çoxdur. **"Cari büdcənin icrası nəticəsində 10 aylıq rəqəmlərimiz göstərir ki, xüsusilə qeyri-büdcə təşkilatları üzrə icra 105 faizə yaxınlaşır və əlavə vəsait icranın daha yaxşı aparılması nəticəsində gələn ilə proqnozumuzun cari il proqnozu ilə fərqini daha da azaldır. Qeyd etməliyəm ki, bu vəsaitin böyük bir hissəsi - 97 faizi əhaliyə ödənişlərə yönəldiləcək",** - deyə S.Babayev söyləyib.

Nazir qeyd edib ki, proqnozlara əsasən gələn il üzrə Azərbaycanda orta aylıq əmək pensiyası 241 manat təşkil edəcək, yaşa görə əmək pensiyasının orta aylıq məbləği isə 272 manata çatacaq. Bu isə qeyd etdiyimiz kimi həyata keçirilən siyasətin ana məqsədidir. Sığorta Fondunun büdcəsi 83 milyon 451 min manat məbləğində qiymətləndirilir. Bu qiymətləndirmə cari ilin gözlənilən nəticələrindən 4,7 faiz artıq olacaq. Xərclərin strukturunda önəmli istiqamət özünüməşğulluq tədbirlərinə yönəldilib. Bu, həyata keçirilən genişmiqyaslı bir proqramdır və cari ildə 7 min ailəni əhatə edəcək və Azərbaycanda kiçik ailə təsərrüfatlarının yaradılmasına ciddi şəkildə stimul verəcək. Gələn ilin büdcəsinin 50 faizdən artığı məhz özünüməşğulluq tədbirlərinə yönəldilib. Yaradılan Dayanıqlı Operativ Sosial Təminat Agentliyi, eyni zamanda, həyata keçirilən məşğulluq və sosial təminat tədbirlərində maliyyə təminatı büdcədə öz əksini tapıb.

**"Biz gələn il ərzində Azərbaycanda məşğulluq tədbirlərinin təxminən 200 min nəfəri əhatə etməsini gözləyirik. Sosial müdafiə, sosial təminat tədbirlərinin isə 2,1 milyon nəfəri əhatə etməsi planlaşdırılır. Burada pensiya alanlar təqribən 1 milyon 294 min nəfər nəzərdə tutulur, sosial müavinət və təqaüd alanlar 570 min nəfər proqnozlaşdırılır. Digər yardım alan insanlarla birlikdə, ümumilikdə, sosial təminat sistemi ölkə əhalisinin 21 faizini əhatə edəcək"**, - deyə nazir diqqətə çatdırıb.

İclasda çıxış edən Milli Məclis sədrinin birinci müavini Ziyafət Əsgərov bildirib ki, Azərbaycan neftini dünya bazarına çıxararaq əldə etdiyi gəlirləri ölkə iqtisadiyyatının şaxələndirilməsinə yönəldir. 2019-cu ilin dövlət büdcəsi layihəsi qlobal iqtisadi konyukturalar nəzərə alınmaqla hazırlanıb və gələcəyə etibarlı təminat yaradır.

Z.Əsgərov deyib ki, gələn ilin büdcəsi də əvvəlki illərdə olduğu kimi sosialyönümlüdür. Hər şeydən əvvəl bu, Konstitusiyanın tələbindən irəli gəlir. 2019-cu ildə müdafiə və təhlükəsizlik xərcləri üçün 3 milyard 37 milyon manat vəsait nəzərdə tutulub. Bu da 2018-ci illə müqayisədə 132,4 milyon manat və ya 4,6 faiz çoxdur. Bu da başadüşüləndir, çünki biz Ermənistanla müharibə şəraitindəyik, müdafiə üçün bu sahəyə vəsait ayırmalıyıq. Üstəlik hərbi qulluqçuların sosial müdafiəsinə də xüsusi diqqət ayrılır.

Milli Məclisin sədr müavini Valeh Ələsgərov, Milli Məclisin komitə sədri Eldar İbrahimov, deputatlardan Vahid Əhmədov, Zahid Oruc, Əli Məsimli, Xanhüseyn Kazımlı, Dövlət Gömrük Komitəsinin idarə rəisi Mirqasım Vahabov 2019-cu ilin dövlət büdcəsi zərfi barədə fikirlərini bildirib, qeyd və təkliflərini veriblər.

Maliyyə naziri Samir Şərifov iclasda qaldırılan məsələlərə münasibət bildirdikdən sonra "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsi haqqında" qanun layihəsi Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə olunub.

# Ulu öndər Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət



V Bakı Beynəlxalq Teatr Konfransının iştirakçıları noyabrın 5-də Fəxri xiyabana gələrək xalqımızın Ümummilli lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini yad edib, məzarı önünə əklil qoyub və gül dəstələri düzüblər.

AZƏRTAC xəbər verir ki, sonra qonaqlar Şəhidlər xiyabanına gedərək Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının məzarlarını ziyarət edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyublar.

# Bakı V Beynəlxalq Teatr Konfransı dünyanın nüfuzlu teatr xadimlərini yenidən bir araya gətirib

## *Konfransa 40-dan çox ölkədən 110 xarici qonaq qatılıb*



Noyabrın 5-də Bakıda V Beynəlxalq Teatr Konfransı işə başlayıb.

AZƏRTAC xəbər verir ki, "XXI əsr teatr fəlsəfəsi: mövcudluq konsepsiyası" adı altında Azərbaycan Dövlət Musiqili Teatrında keçirilən konfrans Mədəniyyət Nazirliyi, Teatr Xadimləri İttifaqı və Azərbaycan Milli Elmlər Akademiyasının birgə təşkilatçılığı ilə reallaşıb.

Tədbir iştirakçıları əvvəlcə teatrın foyesində ötən beynəlxalq teatr konfranslarından bəhs edən fotosərgi və Milli Kitabxana tərəfindən təşkil edilən kitab sərgisi ilə tanış olublar.

Açılış mərasimi səhnədə quraşdırılan monitorda Beynəlxalq Teatr Konfransının tarixini, Azərbaycan teatrının şanlı keçmişini əks etdirən videomaterialın







nümayişi ilə başlayıb. Sonra "British Council Azerbaijan" təşkilatının "Unlimited" proqramı çərçivəsində əlilliyi olan və əlilliyi olmayan insanlar səhnədə çıxış ediblər.

Azərbaycan Respublikası Prezident Administrasiyasının humanitar siyasət şöbəsinin müdiri Fərəh Əliyeva tədbir iştirakçılarını salamlayaraq Prezident İlham Əliyevin konfrans iştirakçılarına ünvanladığı təbrik məktubunu oxuyub.



Konfransın açılış mərasimində mədəniyyət naziri Əbülfəs Qarayev çıxış edərək ölkəmizdə iki ildən bir gerçəkləşən konfransın əhəmiyyətindən danışıb.

Bildirib ki, konfrans Prezident İlham Əliyevin 2009-cu il 18 may tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan teatrı 2009-2019-cu illərdə Dövlət Proqramı"na əsasən keçirilir. Builki konfransda 40-dan çox ölkədən 120 xarici qonaq iştirak edir. Məruzəçilər arasında nüfuzlu beynəlxalq təşkilatların rəhbərləri yer alır.

Ə.Qarayev söyləyib ki, konfransın məqsədi dünyanın müxtəlif ölkələrindən gəlmiş teatr peşəkarları tərəfindən müasir teatrların imkanlarının və qarşılıqlı əlaqələrinin müzakirə edilməsi, yeniləşən dünyada teatr üçün platforma yaratmaqdır. Müxtəlif ölkələrdən teatr xadimlərinin yenidən bir araya gəlməsi və belə bir tədbirin Bakıda keçirilməsi bizdə qürur hissi doğurur. İki gün davam edəcək konfransda dünyanın məşhur teatr, incəsənət xadimləri - rejissorlar, aktyorlar, dramaturqlar, ssenaristlər, bəzi ölkələrin teatr xadimləri ittifaqlarının, teatrla bağlı tanınmış qurumların, eləcə də müxtəlif ölkələrin teatr rəhbərlərinin iştirakı ilə məruzələr dinləniləcək, ümumilikdə konfransın gündəliyində yer alan məsələlər teatr bilicilərinin canlı ünsiyyətini təmin etməklə yanaşı, uğurlu nəticəyə, qarşılıqlı yeni əlaqələrin qurulmasına zəmin yaradacaq.

**"Azərbaycan dövləti teatr sənətinin inkişafına böyük diqqət yetirir. Teatrımız XXI əsrdə yeni mərhələyə qədəm qoyub. Teatrlarımız dünyanın ən məşhur festivallarında uğurla çıxış edir. Ölkəmizdə həyatın bütün sahələri kimi, mədəniyyət sahəsinə də xüsusi qayğı var. Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın təşəbbüsü ilə ölkəmizə keçirilən beynəlxalq tədbirlər, forumlar, konfranslar, beynəlxalq yarışlar, reallaşdırılan layihələr ümumilikdə dövlətimizin daha yaxından tanınmasına xidmət edir. Bu gün təkcə Bakıda deyil, bölgələrdəki teatrlarımız da yeni inkişaf yoluna qədəm qoyub. Bu yaxınlarda Sumqayıt Dövlət Teatrı və Mingəçevir Dövlət Dram Teatrı 50 illiyini qeyd etdik. Bizim teatr sənətimizin bir əsrdən çox yaşı var. Bu gün Azərbaycan ərazisinin 20 faizi Ermənistanın silahlı qüvvələri tərəfindən işğal olunub. Həmin yerlərdə teatr binaları, incəsənət, mədəniyyət abidləri, çoxsaylı tarixi abidlər dağıdılıb. Bu gün Ağdam, Füzuli, Şuşa, İrəvan teatrları qaçqın taleyi yaşayır və öz mövcudluqlarını qoruyub saxlamaq üçün bütün çətinliklərə sinə gərir. Xalqımıza məxsus bütün mədəni dəyərləri qorumağa, ona sahib çıxmağa çalışmalıyıq",** - deyə Ə.Qarayev söyləyib.

Builki konfransın əvvəlkilərdən fərqləndiyini diqqətə çatdıran nazir deyib ki, burada iştirak edən qonaqlar "YARAT" Müasir İncəsənət Məkanının təşkilatçılığı ilə keçiriləcək beynəlxalq festivalda da iştirak edəcəklər.

Tədbirdə Azərbaycan Teatr Xadimləri İttifaqının sədri, Xalq artisti Azər Paşa Nemətov Azərbaycanda dövlətin teatrlarla sıx əlaqədə olduğunu, sənət adamlarına diqqət və qayğı ilə yanaşdığını diqqətə çatdırıb.

Konfransın mədəniyyətlər arasında körpü rolu oynadığını vurğulayan Beynəlxalq Teatr İnstitutunun (BTİ) prezidenti Məhəmməd Ələfxam deyib ki, incəsənət xadimlərinin bir araya gəlməsi dünyada sülhün təminatına xidmət edən hadisədir.

UNESCO-nun Sülh Artisti Əli Mahdi çıxışı zamanı diqqətə çatdırıb ki, konfrans yeni fikir və ideyaların paylaşılmasına şərait yaradır. İnanırıq ki, konfrans ümumbəşəri hədəflərə çatmaq üçün öz səylərini əsirgəməyəcək.

Beynəlxalq Kukla Teatrları İttifaqının (UNIMA) kommunikasiya və ictimai əlaqələr üzrə komissiyasının sədri Katarina Klançnik-Kokutar təşkilatın Azərbaycanla əlaqələrindən söz açıb. Birgə əməkdaşlığı yüksək dəyərləndirib.

GİTİS Universitetinin rektoru Qriqori Zaslavski və Beynəlxalq Uşaq və Gənclər Teatrları Assosiasiyasının (ASSITEJ) prezidenti İvet Hardi çıxış edərək konfransın əhəmiyyətindən danışıb, dünya teatrlarının bir araya gəlməsi və qarşılıqlı fikir mübadiləsi baxımından önəmini vurğulayıblar. Bildirilib ki, XXI əsrdə teatr problemləri nəinki fəlsəfi anlamda, həm də mövcud olan problemlərin istiqamətlərini və həlli yollarını düşünməlidir. Bakı konfransı bu məsələlərə konseptual yanaşma imkanı verir.

Konfrans işini plenar iclaslarla davam etdirib.

Bakı V Beynəlxalq Teatr Konfransına noyabrın 6-da yekun vurulacaq.

# Azərbaycan radio və televiziya işçilərinin peşə bayramı geniş konsert proqramı ilə qeyd edilib



Azərbaycanda radio və televiziya işçilərinin peşə bayramı günü münasibətilə noyabrın 5-də bayram konserti təqdim olunub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında reallaşan konsertdən əvvəl Azərbaycan Dövlət Televiziya və Radiosunun keçdiyi inkişaf yolundan bəhs edən videoçarx nümayiş edilib.

Sonra Azərbaycan Dövlət Televiziya və Radiosunun tarixindən danışılıb, cəmiyyətimiz üçün əhəmiyyəti vurğulanıb.

Bildirilib ki, 1926-cı il noyabrın 6-da Azərbaycanda ilk dəfə radio verilişlərinin yayımına başlanılıb. Həmin gün ölkə paytaxtının küçələri və meydanlarında qurulmuş reproduktorlardan ilk dəfə "Danışır Bakı" ifadəsi yayılıb. Bu hadisə o vaxt Azərbaycan xalqının siyasi və mədəni həyatında böyük bir yenilik idi.

Azərbaycan Televiziyası yaranandan sonra isə bu tarix təkcə radionun deyil, teleradionun yaranma günü kimi qeyd olunmağa başlayıb. Bakı Televiziya Studiyası ilk dəfə 1956-cı il fevralın 14-də efirə çıxıb. İlk veriliş günü ekranda mərhum sənətkarımız Nəcibə Məlikova görünüb və o, çıxışına "Göstərir Bakı" sözləri ilə başlayıb. Həmin gün televiziyada "Bəxtiyar" bədii filmi də nümayiş olunub.



Azərbaycan Televiziya və Radiosu mürəkkəb və şərəfli inkişaf yolu keçib. Fəaliyyətinin ilk mərhələsində televiziya sahəsində mütəxəssislər olmadığından, burada işləməyə radio, qəzet və teatr əməkdaşları dəvət edilib. Bakı studiyası əvvəlcə həftədə iki, sonra üç dəfə iki saatlıq proqramla efirə çıxıb. Televiziyada proqramlaşdırma, şəbəkə və model haqqında anlayış olmadığı üçün studiya əsasən retranslyator kimi fəaliyyət göstərib.

Azərbaycan Televiziyası ölkə teleməkanının formalaşmasında böyük rol oynayıb. Bu, müstəqillik dövründə yaradılan bütün telekanalların fəaliyyətində özünü qabarıq göstərib. 1991-ci ildə AzTV rəhbərliyinin təşəbbüsü ilə ölkə teleməkanında ilk özəl studiya - "215 KL" adlı studiya yaradılıb. Sonrakı illərdə Azərbaycan teleradiosunda yetişən peşəkarlar özəl televiziya və radioların qurulması prosesində fəal iştirak ediblər.

Vurğulanıb ki, bu gün geniş tamaşaçı auditoriyasına malik AzTV-nin verilişləri peyk vasitəsilə dünyanın bir çox yerlərində yayımlanır. Bir sıra ölkələrdə onun müxbir məntəqələri fəaliyyət göstərir. Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında və təbliğində ilk milli televiziyamızın rolu danılmazdır. Avropaya yayımın texniki səviyyəsinə görə Azərbaycan Televiziyası 2007-ci ildə "Avropa keyfiyyəti" medalına layiq görülüb.

Son illər AzTV-də aparılan ciddi islahatlar nəticəsində yeni proqramlar, verilişlər, tamaşalar meydana gəlib, gənc aparıcı və reportyorlar müsabiqə yolu ilə işə cəlb edilib, efirə və kanalın infrastrukturuna planlı şəkildə kapital qoyuluşu həyata keçirilib, bir sıra yeni studiyalar yaradılıb. Hazırda Azərbaycan Televiziyasında rəngarəng mövzularda tok-şoular, portret verilişləri, musiqili-əyləncəli proqramlar, televiziya tamaşaları, maraqlı sənədli və bədii filmlər nümayiş etdirilir.

Tədbir konsert proqramı ilə davam edib. Konsertdə AzTV-nin bir sıra musiqi kollektivləri Əməkdar incəsənət xadimi Nazim Hacıəlibəyovun dirijorluğu ilə çıxış edib. Konsertdə xalq və bəstəkar mahnıları səsləndirilib.

# Azərbaycan və Səudiyyə Ərəbistanı daxili işlər nazirlərinin görüşü olub



Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Ramil Usubov noyabrın 4-də Səudiyyə Ərəbistanı Krallığının daxili işlər naziri şahzadə Əbdüləziz bin Səud bin Nayif Al Səudun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, nazir Ramil Usubov onun dəvətini qəbul edərək Azərbaycana rəsmi səfərə gəldiyinə görə şahzadə Əbdüləziz bin Səud bin Nayif Al Səuda təşəkkürünü bildirib, ölkələrimiz arasında son illər bütün sahələrdə əməkdaşlığın genişləndiyini vurğulayıb.

Xalqlarımız arasında çoxəsrlik tarixi, mədəni, dini yaxınlığın mövcudluğunu qeyd edən nazir dövlətlərarası əlaqələrin əsasının Ulu öndər Heydər Əliyev tərəfindən qoyulduğunu, həmçinin 2005-ci ildə Azərbaycan Prezidenti İlham Əliyevin Səudiyyə Ərəbistanına rəsmi səfər etdiyini, müxtəlif sahələrdə beynəlxalq hüquqi sənədlərin imzalandığını məmnunluqla xatırladıb. O, Prezident İlham Əliyevin və İki Müqəddəs Ocağın Xadimi, Kral Salman bin Əbdüləziz Al Səudun siyasi iradələri sayəsində ikitərəfli münasibətlərin dinamik inkişaf etdiyini, Səudiyyə Ərəbistanının beynəlxalq arenada Azərbaycanı tam dəstəklədiyini söyləyib, bu səfərin, xüsusən Əbdüləziz bin Səud bin Nayif Al Səudun dövlətimizin başçısı tərəfindən qəbul olunmasının Daxili İşlər nazirlikləri arasında əməkdaşlığın daha da genişləndirilməsinə yeni impuls verəcəyinə əminliyini ifadə edib.

Ramil Usubov müstəqilliyin ilk illərində Azərbaycanın qarşılaşdığı problemlər, torpaqlarımızın işğalı, Ulu öndərin ali hakimiyyətə qayıdışından sonra ölkə həyatının bütün sahələrində, o cümlədən daxili işlər orqanlarında aparılan islahatlar, cinayətkarlıqla mübarizə və ictimai asayişin qorunması sahəsində əldə edilmiş müsbət nəticələr barədə məlumat verib. Qeyd olunub ki, kriminogen durumun tam nəzarətə götürülməsi, sabitliyin bərpası Azərbaycanda bir sıra qlobal infrastruktur layihələrin reallaşmasına, iqtisadiyyata külli miqdarda xarici sərmayənin yatırılmasına, insanların təhlükəsiz, əmin-amanlıq şəraitində yaşayıb fəaliyyət göstərməsinə, hər il getdikcə daha çox səudiyyəlinin turist kimi respublikamıza gəlməsinə əlverişli şərait yaradıb.

Daha sonra nazir regionda cərəyan edən proseslərin transmilli mütəşəkkil cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi zərurətini meydana çıxardığını qeyd edib, bu növ cinayətlərə, xüsusən beynəlxalq terrorçuluğa, narkotik qaçaqmalçılığına, qanunsuz silah ticarətinə, insan alverinə qarşı səmərəli mübarizə aparmaq üçün əməkdaşlığın genişləndirilməsinin, informasiya mübadiləsinin intensivliyinin artırılmasının əhəmiyyətini, Daxili İşlər nazirlikləri arasında əlaqələrin möhkəmləndirilməsinin, bununla əlaqədar mükəmməl normativ hüquqi bazanın yaradılmasının əhəmiyyətini diqqətə çatdırıb. Nazir səudiyyəli həmkarının dəvəti əsasında cari il fevral ayının 19-da dost ölkəyə rəsmi səfəri zamanı "Azərbaycan Respublikası və Səudiyyə Ərəbistanı Krallığı arasında cinayətkarlığa qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında" Protokolun imzalanmasını bu istiqamətdə mühüm addım kimi dəyərləndirərək qarşılıqlı faydalı münasibətlərin hər iki ölkənin maraqlarına və xalqlarımızın mənafelərinə cavab verdiyini vurğulayıb.

Əbdüləziz bin Səud bin Nayif Al Səud dəvətə və yüksək qonaqpərvərliyə görə Ramil Usubova təşəkkür edib, bu səfərin əməkdaşlıq əlaqələrinin daha da dərinləşməsinə xidmət edəcəyinə əminliyini bildirib.

Respublikamıza ilk dəfə rəsmi səfər etməsindən, onun dinamik inkişafından, burada gedən böyük quruculuq işlərindən məmnunluğunu ifadə edən şahzadə Əbdüləziz bin Səud bin Nayif Al Səud həssas bölgədə yerləşən Azərbaycan və Səudiyyə Ərəbistanının möhkəm təməllərə söykənən dostluq və qardaşlıq münasibətlərinin, hər iki ölkədə sabitliyin, əmin-amanlığın təmin edilməsinin regiondakı ümumi təhlükəsizliyə müsbət təsir göstərəcəyini, Krallığın hüquq-mühafizə orqanlarının əməkdaşlıqda hər zaman maraqlı olduqlarını diqqətə çatdırıb.

Görüşdə təhlükəsizlik sahəsində əlaqələrin mövcud vəziyyəti, prioritet istiqamətləri barədə faydalı fikir mübadiləsi aparılıb, qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər müzakirə olunub.

Azərbaycanın Səudiyyə Ərəbistanındakı səfiri Şahin Abdullayev görüşdə iştirak edib.

# İspaniyada "Dinlərarası dialoqun sülhə və qarşılıqlı anlaşmaya töhfəsi" mövzusunda beynəlxalq konfrans keçirilib



Noyabrın 5-də İspaniyanın paytaxtı Madrid şəhərində "Dinlərarası dialoqun sülhə və qarşılıqlı anlaşmaya töhfəsi" mövzusunda beynəlxalq konfrans keçirilib. Konfransda Azərbaycanı hökumət üzvləri, Milli Məclisin deputatları, tanınmış elm və din xadimləri, habelə Rus Pravoslav kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının Arxiyepiskopu Aleksandr İşein, Dağ yəhudiləri icmasının başçısı Milix Yevdayev və Katolik Kilsəsinin Azərbaycandakı yepiskopu Vladimir Fekete və digərləri təmsil ediblər.



AZƏRTAC xəbər verir ki, tədbir Qafqaz Müsəlmanları İdarəsinin (QMİ), Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK), İspaniyanın Ədliyyə Nazirliyinin və Evsen Fondunun birgə təşkilatçılığı ilə keçirilib.



Evsen Fondunun rəhbəri Eli Evsen tədbirdə çıxış edərək bildirib ki, bu gün insanların qarşısında gənclərin sağlam gələcəyinin təmin edilməsi əsas vəzifə kimi dayanır. Qeyd edib ki, bunun üçün bütün dinlərin nümayəndələrinin birgə fəaliyyət göstərməsi olduqca önəmlidir. O deyib: **"Biz gənclərə düzgün yol göstərməli, təhsil almalarını təmin etməliyik. Yalnız savad qazanmaqla, təhsil almaqla sağlam gələcək təmin edilə bilər. Bu gün bütün dünyada təriqətlərarası münaqişələr mövcuddur. Bunu inkar etmək olmaz. Ancaq biz müqəddəs bir amal - sağlam gələcək naminə bir olmalıyıq".**



İspaniya ədliyyə nazirinin müşaviri Manuel Xesus Dols İspaniya Konstitusiyasında dini azadlığın tam təsbit olunduğunu bildirib. Qeyd edib ki, dinlərarası əməkdaşlıq bugünkü dünya üçün olduqca vacibdir. Bütün dünyada mövcud dinlərə qarşılıqlı hörmət göstərilməlidir. Yalnız qarşılıqlı hörmət və birgə fəaliyyətlə mövcud problemləri həll edə bilərik.



Azərbaycan Prezidenti İlham Əliyevin konfrans iştirakçılarına salamlarını çatdıran QMİ sədri şeyxülislam Allahşükür Paşazadə Yer üzündə yaşayan insanların bir-birlərinə qarşılıqlı hörmət və ehtiram ruhunda yaşamalarının Uca Yaradanın ən böyük tövsiyəsi olduğunu söyləyib. **"Bu barədə müqəddəs Kitabımız "Qurani-Kərim"də buyurulur: "Yer üzü (iman və ədalətlə) islah olunduqdan sonra orada fəsad törətməyin". Dinamik inkişafda olan, sürətlə dəyişən dünyada son zamanlar cərəyan edən hadisələr, təəssüf ki, dini və milli zəmində dözümsüzlük, qarşıdurma halları və ekstremizmin tüğyan etməsi ilə müşayiət olunur. Planetimizin müxtəlif yerlərində törədilən terror aktları, insan qırğını, maddi və qeyri-maddi mədəni irsin məhvi, separatizm, ksenofobiya, islamofobiya, antisemitizm təzahürləri, heç şübhəsiz ki, sivilizasiyalar arasında qütbləşməni dərinləşdirir, dinlərarası və millətlərarası dialoqa ciddi zərbə vurur.**

**Yaşanan böhran və faciələrə baxmayaraq, şükürlər olsun ki, dünyamızı mehvərindən çıxmağa qoymayan əbədi mənəvi dəyərlər mövcuddur. Azərbaycan Prezidenti İlham Əliyevin elan etdiyi istər "Multikulturalizm İli", istər "İslam Həmrəyliyi İli" məhz bu məramlara xidmət edir. Dünyanın bir sıra ölkələrində həyata keçirdiyimiz beynəlxalq tədbirlər, o cümlədən bugünkü ənənəvi, sayca üçüncü beynəlxalq Madrid konfransı da bu amallara xidmətin nümunəsidir. Tarixboyu Şərq ilə Qərb arasında körpü rolunu oynayan Azərbaycan bu gün dövlətimizin başçısının qlobal missiyası sayəsində dünyada gedən proseslərə özəl, dəyərli töhfəsini - multikulturalizmin real modelini təqdim edir"**, - deyə Allahşükür Paşazadə vurğulayıb.

Albaniyanın keçmiş kardinalı Ernest Simoni bu gün dünyanın bir çox bölgələrində münaqişələrin olduğunu xatırladaraq, bütün insanları əhalisi çətin şəraitdə yaşayan bu bölgələrə yardıma səsləyib.

Madridin baş yepiskopu Karlos Osoro bütün dinlərdə sabitliyin, sülhün əsas tutulduğunu qeyd edib. Lakin təəssüflər olsun ki, insanlar heç də hər zaman bu dəyərlərə sadiq qalmırlar.

Beynəlxalq Dinlərarası və Mədəniyyətlərarası Dialoq Mərkəzinin baş katibi Feysəl bin Müəmmər dünyada islamofobiyanın mövcud olduğunu xatırladıb. Qeyd edib ki, bu yanlış yanaşmaya qarşı sağlam mübarizənin aparılması vacibdir. Bunun üçün yalnız İslam dininə mənsub insanlar deyil, digər dinlərin nümayəndələri də birgə səy göstərməlidirlər.

Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov dövlət-din münasibətlərində qanunvericiliyin rolu mövzusunda çıxış edib. Qeyd edib ki, dinlərarası dialoq sivilizasiyaların da inkişafına təkan verir. Dini azadlıq olmadan digər azadlıqlardan danışmağa dəyməz. Azərbaycan Respublikasının Konstitusiyasında dini azadlıq tam təsbit edilib. Azərbaycan Prezidenti tərəfindən ölkəmizdəki dini konfessiyalara diqqət, qayğı göstərilir. Bugünkü konfransda Azərbaycanda yaşayan bütün dini icmaların nümayəndələrinin iştirakı bir nümunədir.

Bakı Dövlət Universitetinin rektoru, akademik Abel Məhərrəmov çıxış edərək bildirib ki, bu gün bütün cəmiyyətlər üçün ən vacib məsələlərdən biri tolerantlığı qorumaqdır. Cəmiyyət nə qazanıbsa sülhün hesabına qazanıb. Münaqişə, müharibə cəmiyyətə yalnız zərər verir. Dünyada iki yüz dövlət, beş min etnos var. Bu xalqlar hamısı bir yerdə, bir dünyada mehriban yaşamalıdırlar.

Bu gün dünyada bir çox sosial ədalətsizliklərin olduğunu bildirən Türkiyə Respublikasının Diyanət İşləri Başqanı Əli Ərbaş deyib: **"Bu gün dünyada mövcud olan sosial ədalətsizliklərdən biri də aclıqdır. Hər 3 saniyədə bir insan aclıqdan ölür. Sosial ədalətsizliklərdən digəri isə islamofobiyadır. Bu, çox qorxulu problemdir. Ona əsasən Avropa ölkələrində rast gəlinir. İslamofobiyanı dəstəkləyən qüvvələr terror təşkilatları yaradır, müsəlman ölkələrində insanları öldürür, faciələr törədirlər".**

Moskva şəhəri və "Moskovskiy Muftiyat" Mərkəzi Regionu müsəlmanlarının Ruhani İdarəsinin müftisi Albir Krqanov dünyada İslam dininə qarşı mövcud olan ikili standartlardan danışıb. Bildirib ki, belə yanaşmaları aradan qaldırmaq üçün İslam dininə mənsub insanlar bir olmalıdırlar.

Tədbir digər çıxışlarla davam etdirilib.

Sonda Evsen Fondu tərəfindən bir sıra tədbir iştirakçılarına xatirə hədiyyələri təqdim edilib.

# Milli Onkologiya Mərkəzi və "Regional İnkişaf" İctimai Birliyi regionlarda ödənizşiz tibbi müayinələr aparır



Səhiyyə Nazirliyinin Milli Onkologiya Mərkəzinin və Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyinin (RİİB) birgə təşkilatçılığı ilə onkoloji xəstəliklərin erkən diaqnostikası məqsədilə Gəncə-Qazax regionunda ödənişsiz tibbi müayinələrə başlanılıb.



AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, layihənin məqsədi skrininq, şişönü və şiş xəstəliklərini erkən müayinədə aşkar edərək, vaxtında dəqiq müayinə və müalicəsini aparmaqdır.

Layihə çərçivəsində noyabrın 5-də Samux rayonunda təşkil olunan müayinələr Milli Onkologiya Mərkəzinin 14 nəfərlik həkim briqadası tərəfindən aparılıb. Aksiya tibbi-texniki avadanlıq və vasitələrlə təchiz olunmuş Səyyar Diaqnostik Kompleksdə, həmçinin Samux Rayon Mərkəzi Xəstəxanasında həyata keçirilib. Müayinələr Samux və ətraf rayonlardan 500-dən çox sakini əhatə edib. Müraciət edən region sakinləri qalxanabənzər vəzi, boyun şişləri, süd vəzlərinin mammoqrafiyası və digər müayinələrə cəlb olunub. Eyni zamanda, xəstəlik riski olanlar tam müayinələrdən keçmək və müalicə almaq üçün Milli Onkologiya Mərkəzinə dəvət edilib. Ödənişsiz tibbi müayinələr noyabrın 6-da da davam edəcək.

Məlumat verilib ki, müvafiq tibbi müayinələr noyabrın 7-si və 8-də Gəncə şəhərində də aparılacaq. Noyabrın 9-da isə Milli Onkologiya Mərkəzinin baş direktorunun birinci müavini, professor Əziz Əliyev tərəfindən Mərkəzi Klinika Gəncə Xəstəxanasında bəzi onkoloji xəstələrin ödənişsiz cərrahi əməliyyatı həyata keçiriləcək. Layihə çərçivəsində, eyni zamanda, noyabrın 10-da Gəncə şəhəri Heydər Əliyev Mərkəzində "Bədxassəli şişlərin diaqnostika və müalicəsinə multidisiplinar yanaşma" mövzusunda konfrans təşkil olunacaq.

Qeyd edək ki, "Regional İnkişaf" İctimai Birliyi və Milli Onkologiya Mərkəzi onkoloji xəstəliklərin diaqnostikası və müalicəsinə dəstək məqsədilə bu günədək Beyləqan, Ağcabədi, Qəbələdə və digər bölgələrdə də layihələr həyata keçirib.

# Azərbaycan Fələstin Dövlətinin Asiya ölkələrindəki səfirlərinin konfransına ev sahibliyi edib



Noyabrın 5-də Bakıda Fələstin Dövlətinin Asiya ölkələrindəki səfirlərinin konfransı keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə iştirak üçün Fələstin Dövlətinin xarici işlər naziri Riad Əl-Maliki, Fələstin xarici işlər nazirinin Asiya, Afrika və Avstraliya məsələləri üzrə müavini Mazen Şamiyah, Fələstin Milli Fondunun rəhbəri-nazir Mouin Elias Yousef Khouri, Fələstinin Asiya ölkələrində akkreditə olmuş 27 səfiri, Fələstin Xarici İşlər Nazirliyinin diplomatları ölkəmizə səfər ediblər.

Konfransın açılışında çıxış edən xarici işlər naziri Elmar Məmmədyarov Azərbaycanın Fələstin tərəfinin müraciəti əsasında Fələstinin Asiya ölkələrindəki səfirlərinin toplantısına ev sahibi qismində çıxış etməkdən məmnun olduğunu qeyd edib. Bildirib ki, Azərbaycan Fələstin xalqının sülh, sabitlik və dayanıqlı inkişafa nail olmaq yolunda mübarizəsini davamlı şəkildə dəstəkləyir. Nazir E.Məmmədyarov Azərbaycanın Fələstin məsələsinin Şərqi Qüdsün Fələstin Dövlətinin paytaxtı olmaqla, iki dövlət prinsipi əsasında həllini davamlı olaraq dəstəklədiyni ifadə edib.

Nazir ölkəmizin Fələstinlə bağlı bir sıra beynəlxalq tədbirlərə, o cümlədən keçən il BMT-nin Fələstin xalqının Ayrılmaz Hüquqlarının tətbiqi üzrə Komitəsinin, humanitar məsələlərin əlaqələndirilməsi üzrə ofisinin, İslam Əməkdaşlıq Təşkilatının (İƏT) və digər QHT və vətəndaş cəmiyyəti nümayəndələrinin iştirakı ilə Qüds məsələsi üzrə beynəlxalq konfransa ev sahibliyi etdiyini diqqətə çatdırıb. Habelə Azərbaycanın Fələstin xalqının çətin günlərində hər zaman onun yanında olduğu və İslam həmrəyliyinə sadiq qaldığını deyən nazir ciddi maliyyə çətinlikləri ilə üzləşən Birləşmiş Millətlər Təşkilatının Fələstinli Qaçqınlara Yardım və İşlərin Təşkili üzrə Yaxın Şərq Agentliyinə Azərbaycanın cari ilin oktyabr ayında 200 min ABŞ dolları məbləğində yardım etdiyini bildirib.

Nazir Elmar Məmmədyarov tədbir iştirakçılarına Ermənistanın ölkəmizə qarşı təcavüzkar siyasəti və onun nəticələri barədə məlumat verib, BMT Təhlükəsizlik Şurasının Azərbaycanın işğal olunmuş ərazilərinin dərhal və qeyd-şərtsiz boşaldılması ilə əlaqədar dörd qətnaməsinin hələ də yerinə yetirilmədiyini vurğulayıb.

Nazir Elmar Məmmədyarov tərəfindən, həmçinin tədbir iştirakçılarına Azərbaycanın İƏT çərçivəsində fəaliyyəti, ölkəmizin İslam həmrəyliyinə verdiyi mühüm töhfə və bu xüsusda irəli sürülən təşəbbüslər və təşkil olunan tədbirlər haqqında məlumat verib.

Fələstin Dövlətinin xarici işlər naziri Riad Əl-Maliki Fələstin xalqının sülh uğrunda mübarizəsində göstərdiyi davamlı dəstəyə görə Azərbaycan tərəfinə təşəkkürünü ifadə edib. O bildirib ki, Bakının Fələstin dövlətinin Asiya ölkələrindəki səfirlərinin toplantısına ev sahibliyi etməsi bu dəstəyin növbəti bariz nümunəsidir.

# Arximandrid Filaret: Azərbaycan bizə dinlərarası dialoqun çox gözəl nümunəsini təqdim edir



Bu sözləri Moskva Patriarxatının xarici kilsə əlaqələri şöbəsinin sədri Arximandrid Filaret Madriddə keçirilən "Dinlərarası dialoqun sülhə və qarşılıqlı anlaşmaya töhfəsi" mövzusunda beynəlxalq konfransda AZƏRTAC-a müsahibəsində söyləyib.

O deyib: **"Mən çıxışımda insan həyatının bütün sahələrinə nüfuz etmiş ümumi qarşılıqlı inamsızlığı müasir dövrün əsas bəlalarından biri adlandırdım. Dini liderlər belə inamsızlığın aradan qaldırılmasına töhfə verməyə çalışırlar. Dini liderlər öz etiqadlarına əsaslanaraq, təmsil etdikləri dini icmaların və bütövlükdə cəmiyyətin sadəcə mövcud inamsızlığı dəf etməsinə deyil, həm də öz xalqları üçün təhlükəsiz və dinc gələcəyi birgə qurmasına kömək etməyə can atırlar.**

**Azərbaycan bizə dinlərarası dialoqun çox gözəl nümunəsini təqdim edir. Qeyd edim ki, Azərbaycanda islam icması ilə pravoslav yeparxiyası arasında yaxşı münasibətlər mövcuddur. Bu, sadəcə dostluq münasibətləri deyildir, bu münasibətlər insanların dini etiqadından asılı olmadan bütün Azərbaycan cəmiyyətinə ümumi xidmətə yönəlib. Dini icmalar da insanların rifahı ilə bağlı ümumi nöqteyi-nəzərə əsaslanaraq əməkdaşlıq edirlər".**

Bu, mənə Moskvanın və bütün Rusiyanın Patriarxı Kirillin xeyir-duası və şeyxülislam Allahşükür Paşazadənin dəvəti ilə iştirak etmək şərəfi nəsib olan ikinci konfransdır.

# "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Fərman Ana dilimizin qorunması və inkişafına diqqət və qayğının bariz nümunəsidir

*Prezident İlham Əliyevin imzaladığı bu Fərman Azərbaycan dilinin tətbiqi sahəsində hüquqi tənzimləmənin və daimi nəzarətin təmin edilməsinə, mövcud nöqsanların və pozuntuların aradan qaldırılmasına xidmət edir*



Xəbər verildiyi kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Fərman imzalayıb. Fərmanda göstərilir ki, müasir Azərbaycan dili mükəmməl qrammatik quruluşa, zəngin lüğət tərkibinə və ifadə vasitələrinə malikdir. Bununla yanaşı, dilimizin hüdudsuz imkanlarından yetərincə və düzgün istifadə edilməməsi halları hələ də kifayət qədər geniş yayılıb. Televiziya və radio kanallarında, internet resurslarında, mətbu nəşrlərdə və reklam daşıyıcılarında ədəbi dilin normalarının kobud şəkildə pozulması, leksik və qrammatik qaydalara əməl edilməməsi, məişət danışığından istifadə olunması, əcnəbi söz və ifadələrin yersiz işlədilməsi az qala adi hala çevrilib. Bu sahədə hüquqi tənzimləmənin və daimi nəzarətin olmaması dil pozuntularının azaldılması və aradan qaldırılması istiqamətində təsirli tədbirlər görməyə imkan vermir.

Məhz bu təsirli tədbirləri görmək üçün ölkə başçısı tərəfindən imzalanan sözügedən Fərmana əsasən Azərbaycan Respublikasının dövlət dilinin tətbiqinə nəzarət edən, kütləvi informasiya vasitələrində, internet resurslarında və reklam daşıyıcılarında ədəbi dil normalarının qorunmasını təmin edən, dövlət büdcəsindən maliyyələşən "Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzi" publik hüquqi şəxs yaradılacaq. Eləcə də həmin Fərmana əsasən Nazirlər Kabineti Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da yaxşılaşdırılması ilə bağlı Tədbirlər Planı"nın hazırlayıb bir ay müddətində təsdiq etməlidir. Bununla yanaşı, kütləvi informasiya vasitələrində, internet resurslarında və reklam daşıyıcılarında ədəbi dil normalarının pozulması hallarının qarşısını almaq üçün qanunvericilik aktlarında dəyişikliklər barədə təkliflərin hazırlanıb üç ay müddətində Azərbaycan Prezidentinə təqdim edilməsi də Fərmanda öz əksini tapıb.

Beləliklə sözügedən Fərman Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ana dilimizin tətbiqi, təbliği, onun saflığının qorunması və inkişafına diqqət və qayğısının bariz nümunəsidir. Ümumiyyətlə, təcrübə göstərir ki, Azərbaycan dilinin imkanlarından yetərincə və düzgün istifadə edilməməsi halları geniş yayılıb. Və mövcud vəziyyət bu sahədə hüquqi tənzimləmənin və daimi nəzarətin həyata keçirilməsini tələb edir. Bu baxımdan, adıçəkilən Monitorinq Mərkəzinin ortada olan çatışmazlıqların aradan qaldırılmasında əsaslı rola malik olacağını söyləmək mümkündür.

Vurğulanmalıdır ki, tarixin müxtəlif dövrlərində ciddi sınaqlarla qarşı-qarşıya qalan Azərbaycan dili zəngin inkişaf yolu keçib. O cümlədən 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu qısa müddətdə Ana dilimizin inkişafına böyük diqqət göstərilib. Daha sonra Azərbaycanın SSRİ-nin tərkibində olduğu illərdə isə dilimizə qarşı hücumların yeni dalğası başlandı. Həmin vaxt "sovet xalqı" formalaşdırmaq adı altında müxtəlif xalqların dilini, mədəniyyətini, milli kimliyini yox etməyə yönələn siyasət Azərbaycanda da özünü göstərirdi. Ölkədə rəsmi dövlət dili rus dili idi, rəsmi tədbirlərdə bir qayda olaraq rus dilində çıxışlar üstünlük təşkil edirdi. Ölkədə elə bir psixoloji mühit yaradılmışdı ki, hətta bəzən sıravi insanlar arasında da Azərbaycan dilində danışmaq, rus dilini bilməmək qəbahət hesab olunurdu. Məhz belə bir şəraitdə Azərbaycan dilini sevən, ona hörmətlə yanaşan Ümummilli liderimiz Heydər Əliyev dilə münasibəti ilə hər kəsə örnək oldu, milli dilimizin qorunması və təbliği istiqamətində müstəsna tədbirlər gördü. Təsadüfi deyil ki, məhz Ümummilli liderimiz Heydər Əliyevin ötən əsrin 70-ci illərinin əvvəllərindən başlayaraq xalqımızın milli-mənəvi dəyərlərinin qorunması, tariximizin düzgün istiqamətdə öyrənilməsi, Ana dilimizin rolunun artırılması, xalqın azadlıq istəyinin təcəssümü kimi ortaya çıxan ədəbi-bədii nümunələrin hücumlardan qorunması yönündə apardığı məqsədyönlü siyasət cəmiyyətdə milli ruhun oyanışına təkan verdi. Ulu öndər Heydər Əliyev 1969-cu ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçildikdən sonra Azərbaycan dili siyasi elitanın dilinə çevrilməyə başladı. Bu, Azərbaycan dilinin inkişaf tarixində ən parlaq səhifələrdən biri kimi yadda qalıb. Ən mühüm məqamlardan biri isə budur ki, 1978-ci ildə qəbul olunan Azərbaycan SSR-in növbəti Konstitusiyasında məhz Ulu öndərin təşəbbüsü ilə ilk dəfə olaraq Azərbaycan dili rəsmi dil statusu əldə etdi.

Azərbaycan Respublikası öz müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan dili cəmiyyətin ictimai-siyasi, sosial-iqtisadi, elmi və mədəni həyatının bütün sahələrində daha geniş istifadə edilməyə başladı və onun dövlət dili kimi maneəsiz inkişafı üçün münbit zəmin yarandı. 1995-ci ildə qəbul edilən Konstitusiyada Azərbaycan dili milli dövlətçiliyimizin rəmzlərindən biri olaraq təsbit edildi. Konstitusiyanın qəbulu ərəfəsində dövlət dilinin adı ilə bağlı keçirilən geniş ictimai müzakirələr Azərbaycan dilinin nüfuzunun artırılmasına təsir etdi, dövlət dilinin müstəqil dövlət üçün nə demək olduğunu əyani şəkildə göstərdi. Bu dövrdə də Ulu öndər Heydər Əliyev tərəfindən milli dilimizin qorunması istiqamətində tarixi əhəmiyyətli qərarlar qəbul edildi. Bu məqamda qeyd edək ki, Ümummilli lider Heydər Əliyevin 2001-ci il avqustun 9-da imzaladığı Fərmana əsasən, avqustun 1-i respublikamızda Azərbaycan əlifbası və Azərbaycan dili günüdür. Eləcə də 2001-ci ilin iyununda Ulu öndər Heydər Əliyev tərəfindən "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Fərman imzalandı. Vurğulamaq gərəkdir ki, Azərbaycan dilinin tarixində bu səviyyədə sənəd qəbul olunmayıb. Çünki sənəddə çox ciddi, strateji münasibət ortaya qoyuldu. Burada dilin tarixindən başlamış, müasir dövrümüzə qədər olan məsələlər geniş şəkildə öz əksini tapdı.

Sevindirici haldır ki, bu gün Ulu öndərimizin əsasını qoyduğu siyasi kursu uğurla davam etdirən Prezident İlham Əliyev dilimizin qorunması və inkişafına böyük həssaslıqla yanaşır. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin mühüm strateji istiqamətlərindən biri kimi Azərbaycan dilinin mühafizəsi və təbliği yönündə reallaşdırılan fundamental tədbirlər həm də milli ideologiyanın - azərbaycançılığın daha da möhkəmlənməsini və kütləvilik səviyyəsinin daha da artmasını şərtləndirib.

Prezident İlham Əliyevin imzaladığı Fərman və sərəncamlar milli dilimizin mühafizəsi və inkişafı yönündə mühüm əsas olmaqla yanaşı, eyni zamanda, milli identikliyi də gücləndirən əhəmiyyətli amildir. "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 12 yanvar 2004-cü il tarixli Sərəncamı da bu istiqamətdə xüsusi əhəmiyyət kəsb edir. Qeyd edək ki, bu Sərəncam əlifba ilə bağlı problemləri tamamilə həll etdi. Bunun da nəticəsində kütləvi nəşrlərin latın qrafikasına keçirilməsi təmin olundu. Dövlət başçısının sonrakı sərəncamları əsasında isə 150 cildlik "Dünya ədəbiyyatı kitabxanası", 100 cildlik "Dünya uşaq ədəbiyyatı kitabxanası", 100 cildlik "Azərbaycan ədəbiyyatı kitabxanası" seriyasından olan yeni nəşrlər respublika kitabxana şəbəkəsinin latın qrafikalı ədəbiyyat fondunu zənginləşdirdi.

Sadalananlarla yanaşı, bir nüansa da xüsusi nəzər salmaq lazımdır. Belə ki, sovet dövründə Azərbaycan dilçilərinin dünya elmində cərəyan edən proseslərdən təcrid olunması ilə əlaqədar ölkəmizdə dilçilik sahəsində müəyyən boşluqlar yaranmışdı və bunları aradan qaldırmaq üçün ölkə başçısı tərəfindən 2012-ci il mayın 23-də "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında" Sərəncamın imzalanması müstəsna əhəmiyyət kəsb edir. Eləcə də "Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunun maddi-texniki bazasının gücləndirilməsi haqqında" 2012-ci il 29 may tarixli, "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" 2013-cü il 9 aprel tarixli, "Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" 2018-ci il 17 iyul tarixli sərəncamları, həmçinin "Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Terminologiya Komissiyası haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 26 noyabr tarixli Qərarı ana dilinə dövlət qayğısının artırılması, dilçilik sahəsində fundamental və tətbiqi araşdırmaların keyfiyyətinin yaxşılaşdırılması üçün əlverişli şərait yaradıb.

Beləliklə, ölkə başçısının bu mənada sonuncu Fərmanı daha böyük əhəmiyyətə malikdir. Bu Fərmanın imzalanması Ulu öndər Heydər Əliyevin təməlini qoyduğu milli siyasətin fonunda Ana dilimizin - Azərbaycan dilinin mühafizəsi və inkişafı yönündə həyata keçirilən belə səmərəli tədbirlərin Prezident İlham Əliyev tərəfindən dövrün aktual çağırışlarına və qanunauyğunluqlarına müvafiq surətdə uğurla davam etdirildiyini bir daha təsdiqləyir.

**Pərviz SADAYOĞLU**

# Azərbaycan İslam həmrəyliyinin güclənməsinə mühüm töhfələr verir

*"Fələstin Dövlətinin Asiya ölkələrindəki Səfirlərinin Konfransı"nın ölkəmizdə keçirilməsi respublikamızın beynəlxalq gündəlikdə duran məsələlərin həllinə töhfə vermək əzmini göstərməklə yanaşı, dünya ictimaiyyətinin Azərbaycana etimad və hörmətinin nümunəsidir*



Cənubi Qafqaz regionunun lider dövləti olan, etibarlı tərəfdaş kimi tanınan Azərbaycan beynəlxalq dialoq və əməkdaşlıq məkanıdır. Respublikamız özünün çoxşaxəli və mütərəqqi xarici siyasət kursu ilə müasir dünyanın, xalqlararası əməkdaşlığın inkişafında və sivilizasiyalararası dialoqda mühüm rol oynayır. Eyni zamanda, ölkəmiz öz təklif və təşəbbüsləri ilə dünyada sülhün və təhlükəsizliyin möhkəmlənməsinə, ümumbəşəri dəyərlərin təbliği və təşviqinə, qlobal xarakterli problemlərin həllinə dəyərli töhfələr verir.

Azərbaycan İslam coğrafiyasında həmrəyliyin təmin olunmasına da xüsusi əhəmiyyət verir və bu istiqamətdə mühüm təşəbbüslər irəli sürür, praktik addımlar atır. İslam dünyasında həmrəyliyin təmin olunmasına müstəsna töhfələr verən Azərbaycanda 2017-ci ilin "İslam Həmrəyliyi İli" elan edilməsi dünyaya mühüm bir çağırış oldu. Ümumiyyətlə, Azərbaycanın İslam həmrəyliyinə xidmət edən bu təşəbbüsü, bu kontekstdə ölkəmiz tərəfindən atılan addımlar yüksək qiymətləndirildi. Bununla yanaşı, Azərbaycanın müsəlman ölkələri ilə ikitərəfli və çoxtərəfli praqmatik əlaqələrə malik olması və qarşılıqlı faydalı münasibətlərin inkişafı, bütövlükdə, İslam coğrafiyasında həmrəyliyin təmin olunmasına xidmət edir. Digər tərəfdən, respublikamız müsəlman ölkələrinin təşkilatı olan İslam Əməkdaşlıq Təşkilatında (İƏT) fəal təmsil olunur və ikitərəfli, eləcə də çoxtərəfli formatda mövcud olan qarşılıqlı faydalı əlaqələr davamlı olaraq daha da möhkəmləndirilir. 2017-ci il ölkəmizdə keçirilən IV İslam Həmrəyliyi Oyunları da Azərbaycanın gücü və nüfuzunu bir daha nümayiş etdirməklə yanaşı, İslam həmrəyliyinə xidmət etdi. Dünya ictimaiyyəti müsəlman aləmini - İslam ölkələrini Şərq və Qərbin qovuşuğunda birləşdirən IV İslam Həmrəyliyi Oyunları çərçivəsində müsəlman ölkələrinin birlik və həmrəyliyinə şahidlik etdi.

Qeyd etdiyimiz kimi, İƏT-in fəal üzv dövlətlərindən olan Azərbaycan İslam həmrəyliyinin gücləndirilməsi işinə praktiki əsaslarla töhfə verir. Onu da qeyd edək ki, Azərbaycan Fələstin xalqının çətin günlərində hər zaman yanında olub və İslam həmrəyliyinə sadiq qalıb. Ölkəmiz ciddi maliyyə çətinlikləri ilə üzləşən BMT-nin Fələstinli Qaçqınlara Yardım və İşlərin Təşkili üzrə Yaxın Şərq Agentliyinə cari ilin oktyabr ayında 200 min ABŞ dolları məbləğində yardım edib. 29 sentyabr 2014-cü il tarixində Fələstinin Qəzza sektorundakı humanitar böhranın aradan qaldırılması məqsədilə Azərbaycan hökuməti tərəfindən ayrılmış 635 min ABŞ dolları məbləğində yardım XİN-in Beynəlxalq İnkişafa Yardım Agentliyi vasitəsilə BMT-nin Fələstinli Qaçqınlara Yardım və İşlər üzrə Yaxın Şərq Agentliyinin (UNRWA) hesabına köçürülüb. 2018-ci ilin aprelində Azərbaycanda Qoşulmama Hərəkatının aralıq nazirlər toplantısı keçirilib. Nazirlər toplantısı çərçivəsində Fələstin üzrə Qoşulmama Hərəkatının Nazirlər komitəsinin iclası baş tutub. Qoşulmama Hərəkatının gündəliyində Fələstin məsələsi xüsusi əhəmiyyət kəsb edir. Ölkəmiz 2019-2022-ci illərdə Qoşulmama Hərəkatına sədrlik edəcək.

Vurğulamaq gərəkdir ki, Azərbaycan Şərqi Əl-Qüds paytaxt olmaqla Fələstin məsələsinin iki dövlət prinsipi əsasında BMT-nin müvafiq qərarları və qətnamələri əsasında həllini dəstəkləyir. Bu mövqe beynəlxalq təşkilatlar çərçivəsində konkret olaraq - birmənalı şəkildə ifadə olunur. Ümumiyyətlə, Fələstin məsələsi uzun müddətdir ki, beynəlxalq gündəlikdə duran ən aktual problemlərdən biridir. 5 noyabr tarixində Bakıda Fələstin Dövlətinin Asiya ölkələrindəki səfirlərinin toplantısının keçirilməsi ölkəmizin beynəlxalq gündəlikdə duran məsələlərin həllinə töhfə vermək əzminin, həmçinin dünya ictimaiyyəti tərəfindən ölkəmizə olan etimad və hörmətin nümunəsidir. Qeyd edək ki, tədbirdə iştirak üçün Fələstin Dövlətinin xarici işlər naziri Riad Əl-Maliki, Fələstin xarici işlər nazirinin Asiya, Afrika və Avstraliya məsələləri üzrə müavini Mazen Şamiyah, Fələstin Milli Fondunun rəhbəri - Nazir Mouin Elias Yousef Khouri, Fələstinin Asiya ölkələrində akkreditə olmuş 27 səfiri, Fələstin Xarici İşlər Nazirliyinin diplomatları ölkəmizə səfər ediblər. Əvvəlki illərdə də Azərbaycan Fələstin ilə əlaqədar bir sıra mühüm tədbirlərə ev sahibliyi edib. 2013-cü ildə Azərbaycanın ev sahibliyi ilə İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində "Müqəddəs Əl-Qüds şəhərinin inkişafı üçün Strateji Sektor Planının maliyyələşdirilməsi"nə dair İƏT Xarici İşlər Nazirlərinin Donor Konfransı və Fələstin Dövlətinə yardım üçün "İslam Maliyyə Təhlükəsizliyi Şəbəkəsi" adlı tədbirlər Bakıda keçirilib. 2017-ci ildə isə Azərbaycan BMT-nin Fələstin xalqının Ayrılmaz Hüquqlarının tətbiqi üzrə Komissiyasının, Humanitar məsələlərin Əlaqələndirilməsi üzrə Ofisinin, İslam Əməkdaşlıq Təşkilatının (İƏT) və digər QHT və vətəndaş cəmiyyəti nümayəndələrinin iştirakı ilə Qüds məsələsi üzrə Beynəlxalq Konfransa ev sahibliyi edib.

Yeri gəlmişkən, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin noyabrın 4-də Fələstin Dövlətinin xarici işlər naziri Riad Əl-Malikini qəbulu zamanı da bu məsələlər diqqət mərkəzində olub. Dövlətimizin başçısı Azərbaycanın Fələstin məsələsinə münasibətdə daim həmrəylik nümayiş etdirdiyini və dəstəyini əsirgəmədiyini qeyd edərək Fələstin Dövlətinin Asiya ölkələrindəki səfirlərinin toplantısına Azərbaycanın ev sahibliyi etməsinin bunun bariz nümunəsi olduğunu vurğulayıb. Prezident İlham Əliyev Azərbaycanın BMT-nin müvafiq qətnamə və qərarlarına uyğun olaraq Fələstin məsələsinin iki dövlət prinsipi əsasında həllini dəstəklədiyini və bu mövqenin beynəlxalq təşkilatlar çərçivəsində birmənalı şəkildə ifadə olunduğunu qeyd edib. Dövlətimizin başçısı Azərbaycanın İslam həmrəyliyinin gücləndirilməsinə ardıcıl surətdə töhfə verdiyini bildirib.

Xatırladaq ki, 1992-ci ilin 15 aprel tarixində Azərbaycan Respublikası ilə Fələstin Milli Hakimiyyəti arasında diplomatik əlaqələrin yaradılması haqqında Protokol imzalanıb. Hazırda isə Azərbaycanda Fələstin Dövlətinin səfirliyi fəaliyyət göstərir. 2017-ci il dekabrın 13-də Prezident İlham Əliyev İstanbulda keçirilmiş İslam Əməkdaşlıq Təşkilatının Qüds məsələsi ilə bağlı fövqəladə Zirvə toplantısında iştirak edib və tədbirdə çıxış edib. Əlbəttə, dövlətimizin başçısının bu tədbirdə iştirakı, Azərbaycanın Fələstinə dəstəyi və İslam həmrəyliyinə sadiqliyi Fələstin Dövlətinin rəhbərliyi tərəfindən yüksək qiymətləndirilir. 2013-cü ilin 21 aprel tarixində isə Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov Yaxın Şərqə səfəri çərçivəsində Fələstinə səfər edib. 2011-ci ilin 28-29 iyun tarixlərində Fələstin Prezidenti Mahmud Abbas Azərbaycan Respublikasına rəsmi səfər edib. Bu, Fələstin Prezidentinin Azərbaycana ilk səfəri olub.

Nəticə etibarilə, noyabrın 5-də keçirilən "Fələstin Dövlətinin Asiya ölkələrindəki Səfirlərinin Konfransı"na paytaxt Bakının ev sahibliyi etməsi mühüm əhəmiyyətə malikdir. Yuxarıda da qeyd etdiyimiz kimi, bu, Azərbaycanın beynəlxalq səviyyədə böyük aktuallığa malik olan məsələlərin həllinə mühüm töhfələr vermək əzmində olduğunu göstərir, beynəlxalq ictimaiyyətin ölkəmizə hörmət və etimadını ifadə edir.

**Nurlan QƏLƏNDƏRLİ**

# Albir Krqanov: Azərbaycan dinlərarası dialoq layihəsini böyük müvəffəqiyyətlə həyata keçirir

Azərbaycan bir neçə ildir dinlərarası dialoq layihəsini böyük müvəffəqiyyətlə həyata keçirir. Bu layihə həm unikal, həm də faydalıdır.

Bu sözləri Madriddə keçirilən "Dinlərarası dialoqun sülhə və qarşılıqlı anlaşmaya töhfəsi" mövzusunda beynəlxalq konfransda Rusiya Müsəlmanları Ruhani Məclisinin müftisi, RF İctimai Palatasının üzvü Albir Krqanov AZƏRTAC-a müsahibəsində söyləyib.

O deyib ki, hazırda əsas etibarilə dini rəmzlərlə müşayiət olunan yeni çağırışları və yeni təhdidləri müşahidə etdiyimiz bir vaxtda etiqadın və dinin əsaslarını vətəndaşlarımıza izah etməliyik.



A.Krqanov diqqətə çatdırıb ki, sovet dövründə bu cür tədbirlər partiyanın tapşırığı ilə keçirilirdi. Amma bu gün Azərbaycanın bu sahədə gördüyü işləri ictimai qurumların, dini təşkilatların hakimiyyət orqanları tərəfindən dəstəklənən təşəbbüsü adlandırardım.

Rusiya Müsəlmanları Ruhani Məclisinin müftisi deyib: "**Bu tədbir Azərbaycanın müxtəlif dövlətlərdə keçirdiyi tədbirlərdə mənim heç də ilk iştirakım deyildir. Mən hər dəfə müasir problemlərin sosial zəmində həlli üçün məkan olan bu cür tədbirlərə böyük marağın şahidi oluram.**

**Belə tədbirlərin təşkili dövlətin dayanıqlı inkişafının göstəricisidir. Dövlət nə qədər dinamik inkişaf edirsə, bir o qədər çox dialoq qurur, müxtəlif mədəniyyətlərlə, dinlərlə ünsiyyətə girməkdən çəkinmir. Bu, sivilizasiyalararası dialoqdur. Bu gün beynəlxalq konfransda da söhbət bu barədə gedib. Bu da Azərbaycan hakimiyyətinin kamilliyini təsdiq edir".**

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**Məqalə KİVDF-nin maliyyə dəstəyi ilə "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" istiqaməti üzrə həyata keçirilən layihə çərçivəsində hazırlanmışdır**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

# Respublikamızda yeni mövsümdə sahələrdən 193892 ton pambıq yığılıb

*Azərbaycanın bir sıra bölgələri üçün ənənəvi təsərrüfatçılıq sahələrindən olan pambıqçılıqda torpaq mülkiyyətçilərinin gəlir imkanları kifayət qədər böyükdür*



Azərbaycanda aqrar sektorun inkişafı istiqamətində aparılan uğurlu siyasət öz bəhrəsini verməkdədir. Belə ki, kənd təsərrüfatında innovativ metodların, qabaqcıl təcrübənin tətbiqi, ixracyönümlü məhsul istehsalının təşviq edilməsi, azad sahibkarlığın hərtərəfli şəkildə dəstəklənməsi, fermerlərə subsidiyalar, güzəştli kreditlər verilməsi, texnika və gübrələrlə təminatın gücləndirilməsi, bölgələrdə dövlət vəsaiti hesabına müasir infrastrukturun yaradılması, həmçinin regionların sosial-iqtisadi inkişafına dair müvafiq Dövlət proqramları çərçivəsində məqsədyönlü tədbirlərin həyata keçirilməsi son nəticədə respublikamızda aqrar sektorun keyfiyyətcə yeni inkişaf mərhələsinə çıxmasını təmin edib.

Respublikanın kənd təsərrüfatı naziri İnam Kərimov bildirib ki, son 15 ildə kənd təsərrüfatı məhsullarının ixrac həcmi 6,3 dəfə, o cümlədən meyvə-tərəvəz məhsullarının ixracı 10,4 dəfə, cari ilin səkkiz ayında isə tərəvəz ixracı 8,4 faiz, meyvə ixracı 32,5 faiz və pambıq xammalı ixracı 2,2 dəfə artıb. Nazirin sözlərinə görə, ölkədə uğurla aparılan aqrar siyasət nəticəsində kənd təsərrüfatında əlverişli bazar şərtləri formalaşıb və biznes fəallığı xeyli yüksəlib. Bunlar özünü aqrar sektorda muzdla çalışan işçilərin sayının və investisiya qoyuluşunun həcminin artmasında da büruzə verib. Yerli istehsal üzrə potensialın güclənməsi və rəqabətqabiliyyətliliyin yüksəlməsi hesabına ölkədə ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsi də əsaslı şəkildə artıb. Azərbaycan dövlət müstəqilliyini bərpa etdiyi dövrlərdə ət və süd məhsulları üzrə bu göstərici 30-35 faiz olduğu halda, hazırda 90 faizə yaxındır. Bütün növ tərəvəz və meyvə ilə özünütəminetmə səviyyəsi 100 faizdən çoxdur.

**"Ayrı-ayrı sahələr üzrə özünütəminetmə səviyyəsinin yerli istehsal hesabına artırılması, inkişaf və idarəetmə məsələlərinin daha çevik tənzimlənməsi, dövlət dəstəyini gücləndirməklə müvafiq sahələr üzrə proqram yanaşmasının tətbiq edilməsi və ünvanlı siyasət tədbirləri mexanizminin yaradılması məqsədilə dövlətimizin başçısının tapşırığına əsasən "Heyvandarlığın intensiv inkişaf etdirilməsinə və örüş-otlaq ərazilərinin səmərəli istifadə olunmasına dair Dövlət Proqramı", "Taxılçılığın inkişafına dair Dövlət Proqramı" və "Toxumçuluğun inkişafına dair Dövlət Proqramı"nın hazırlanması istiqamətində aparılan işlər yekun mərhələsindədir",** - deyə İnam Kərimov qeyd edib.

Son illərdə bütün ölkə üzrə aqrar sektorun inkişafından söhbət açarkən pambıqçılıq sahəsində əldə olunan uğurları da xüsusi qeyd etməliyik. Azərbaycanın bir sıra bölgələri üçün ənənəvi təsərrüfatçılıq sahələrindən olan pambıqçılıqda torpaq mülkiyyətçilərinin gəlir imkanları kifayət qədər böyükdür. Bu məhsulun satışı ilə bağlı hər hansı bir problem yoxdur. Dünya bazarlarında pambıq birjalarda satılır və istehsalçı ölkələrə böyük həcmlərdə valyuta qazandırır. Azərbaycan da Prezident İlham Əliyevin təşəbbüsü ilə regionlarda pambıqçılıq sahəsində ənənələri dirçəltməklə yeni iqtisadi şəraitdə ölkədən qeyri-neft məhsullarının ixracının genişləndirilməsini hədəfləyib. Məlumat üçün bildirək ki, artıq sentyabrın əvvəlindən bölgələrdə kütləvi surətdə pambıq yığımına başlanıb. Təbii ki, pambığın alış qiymətinin artırılması fermerlərdə bu sahəyə marağı daha da artırıb.

Xəbər verildiyi kimi, Azərbaycan Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyəsinə əsasən pambıq istehsalı ilə məşğul olan fermerlərin məhsul istehsalına həvəsləndirilməsi, onların maddi rifahının daha da yaxşılaşdırılması məqsədi ilə Kənd Təsərrüfatı Nazirliyinin, İqtisadiyyat Nazirliyinin məsul işçilərinin iştirakı ilə pambıq istehsalı və emalı ilə məşğul olan şirkət rəhbərləri ilə görüş keçirilib. Görüşdə cari ildə görülən işlər, pambıq yığımının gedişi, tədarükü və emalı vəziyyəti, eləcə də qarşıya qoyulan hədəflərə nail olunması üçün həyata keçirilməsi vacib olan məsələlər müzakirə edilib. Pambıq əkən fermerlərin məhsul istehsalına, yığımına həvəsləndirilməsi və onların maddi rifahının daha da yüksəldilməsi məqsədilə pambığın növlər üzrə mövcud alış qiymətləri hər tona 50 manat olmaqla, 2018-ci ilin məhsulu üçün 1-ci növün 600-dən 650 manata, 2-ci növün 580-dən 630 manata, 3-cü növün 540-dan 590 manata, 4-cü növün 500-dən 550 manatadək artırılması barədə razılıq əldə edilib. Bütün bunlar isə pambıqçılığın inkişafının dövlətin, xüsusilə də Prezident İlham Əliyevin diqqət mərkəzində olduğunu bir daha təsdiqləyir. Yeri gəlmişkən, oktyabrın 9-da keçirilən Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı nitqində bu məqama toxunan Prezident İlham Əliyev bildirib ki, biz pambıqçılığı daha səmərəli şəkildə inkişaf etdirməliyik. Dövlətimizin başçısı deyib: **"2016-cı ildə Azərbaycanda 90 min ton pambıq tədarük edilmişdir, - 2015-ci ili mən demirəm, o illərdə, ümumiyyətlə, məhsuldarlıq çox aşağı idi, - keçən il 207 min ton, yəni 2 dəfədən çox. Bu il təqribən 250-260 min ton pambığın tədarükü nəzərdə tutulur. Yəni artım dinamikası çox müsbətdir. Onu da qeyd etməliyəm ki, hazırda ölkəmizdə pambıqçılıqda 190 mindən çox insan işləyir. Bax, biz pambıqçılığı inkişaf etdirməyə başlayandan sonra bu insanlar işlə təmin olundular. Biz pambığın alış qiymətini bir neçə dəfə artırmışıq. Bu yaxınlarda son dəfə artırdıq ki, pambıqçılıqla məşğul olanlar daha çox pul qazansınlar. Bu gün 190 min insanın işi var".**

Bu sahədə müasir texnologiyaların, elmi yanaşmanın tətbiq olunduğunu vurğulayan Prezident İlham Əliyev qeyd edib ki, məhsuldarlığı böyük dərəcədə artıra bilərik: **"Məhsuldarlıq hektardan minimum 20 sentner olmalıdır. Ancaq indi biz bilirik ki, müasir texnologiyaların tətbiq olunduğu, düzgün aqrotexniki xidmət göstərildiyi bir vaxtda məhsuldarlıq daha da artır. Mən rəqəm səsləndirmək istəmirəm, ancaq hesab edirəm ki, burada inkişaf üçün çox böyük potensial var".**

Qeyd edək ki, bu il respublika üzrə 132 min hektardan artıq ərazidə pambıq əkilib. Ümumilikdə 2018-ci ildə Azərbaycanın 22 bölgəsində pambıq əkilib. 2018-ci ildə sahələrdən ümumilikdə 260 min ton pambıq yığılacağı proqnozlaşdırılır. Noyabrın 3-nə olan məlumata görə, Azərbaycanda yeni mövsümdə sahələrdən 193892 ton pambıq yığılıb. Kənd Təsərrüfatı Nazirliyindən verilən məlumata görə, sahələrdə orta məhsuldarlıq 14,6 sentner təşkil edir. Yığılan pambığın 108641 tonu MKT İstehsalat Kommersiya MMC-nin, 43880 tonu "Azərpambıq ASK" MMC-nin, 25936 tonu "P-Agro" MMC-nin, 9960 tonu "Aqro-Az MMC" və "Goran Cotton" MMC-nin, 5474 tonu isə fərdi əkinlərin payına düşür.

Bu günədək ən çox pambıq Saatlı rayonunda (25857 ton) yığılıb. Ötən il pambıq əkini ilə məşğul olan rayonlar arasında ən çox məhsul tədarük edən saatlılı fermerlər bu mövsüm də öndə gedirlər. Pambıqçılar hər gün sahələrdən 380-400 ton "ağ qızıl" toplayaraq tədarük məntəqələrinə göndərirlər. İndiyədək yığılan məhsulun 80 faizindən çoxu maşınların köməyi ilə toplanıb. Hazırda tarlalarda 41 ən müasir pambıqyığan kombayn işləyir və bu maşınların köməyi ilə gün ərzində 320-330 ton məhsul yığılır. Rayon statistika idarəsindən bildiriblər ki, bu il rayonda 15 min 815 hektar sahədə pambıq əkilib. Bunun da 350 hektarı Qaraqlı kənd inzibati ərazi dairəsinin payına düşür. Kənddə fəaliyyət göstərən sahibkarlar becərdikləri 350 hektar sahədən indiyədək 750 tondan çox məhsul tədarük ediblər. Hər hektarın məhsuldarlığı 25-30 sentner təşkil edir.

Bərdə rayonu isə pambıq yığımına görə ikinci yerdə gedir. Son statistik məlumata görə, Bərdədə 20472 tondan çox pambıq yığılıb. Qeyd edək ki, "Azərpambıq ASK" MMC tərəfindən Bərdə rayonunda təcrübə məqsədilə Türkiyənin "Set Tohum" toxumçuluq şirkətinə məxsus ADN-123 tezyetişən pambıq sortu becərilib. ADN-123 pambıq sortunun yetişdirildiyi Lək kəndi ərazisində keçirilən tarla günündə Kənd Təsərrüfatı Nazirliyinin, "Azərpambıq ASK" MMC-nin, "Aqrolizinq" ASC-nin, Türkiyənin "Set Tohum" toxumçuluq və CANSA şirkətlərinin nümayəndələri, eləcə də fermer və sahibkarlar iştirak edib.

"Azərpambıq ASK" MMC-nin direktoru Bəhruz Camalov, Kənd Təsərrüfatı Nazirliyinin Bitkiçiliyin təşkili və monitorinq şöbəsinin müdir müavini Fərman Kərimov, "Aqrolizinq" ASC-nin şöbə müdiri İsrafil İsmayılov və "Set Tohum" şirkətinin nümayəndələri çıxış edərək, ölkəmizdə kənd təsərrüfatının böyük potensiala malik, ənənəvi və əməktutumlu istehsal sahələrindən olan pambıqçılığın dirçəldilməsi ilə bağlı atılan addımlardan, əldə olunan uğurlardan, məhsuldarlığın artırılması yollarından danışıblar. Bildirilib ki, pambıqçılıqda yüksək məhsuldarlığa nail olmağın əsas şərtlərindən biri yüksək reproduksiyalı, yerli şəraitə uyğun məhsuldar toxumlardan istifadədir. Yüksək məhsuldarlıq keyfiyyətli toxumdan başlayır. Diqqətə çatdırılıb ki, "Azərpambıq ASK" MMC ilə əməkdaşlıq edən fermerin sahəsində becərilən tezyetişən ADN-123 sortu məhsuldarlığı ilə seçilir. Digər pambıq sortlarından xeyli gec - may ayının 23-də 2 hektar sahədə əkilən ADN-123 pambıq sortu yüksək məhsul verib. Bu sort Azərbaycanın torpaq-iqlim şəraitinə tam uyğundur.

Tədbirdə həmçinin Türkiyənin CANSA şirkətinə məxsus pambıqyığan maşının sınağı aparılıb. Bu texnikanın digərlərindən fərqli cəhəti odur ki, tam açmış pambıq sahəsinə bir dəfə girməklə tarladakı bütün pambığı yığır.

Ağcabədi rayonu isə pambıq yığımına görə respublika üçüncüsüdür (20227 ton). Respublikamızın ən iri pambıqçılıq rayonlarından olan Ağcabədidə məhsul yığımı uğurla davam edir. Bu il 10 min hektarda pambıq becərən ağcabədili "ağ qızıl" ustaları gərgin zəhmət hesabına yetişdirilmiş məhsulun toplanışını da nümunəvi təşkil edirlər. Əkin sahələrində aqrotexniki becərilmə qaydalarına ardıcıl və düzgün əməl olunması nəticəsində tarlalarda bol məhsul yetişib. Hazırda bütün qüvvələr mühüm strateji məhsul olan pambığın tez və itkisiz yığılmasına səfərbər edilib. Pambıq yığımına 41 ədəd pambıqyığan kombayn, 108 ədəd traktor, 200-dən artıq qoşqu cəlb olunub. Hər hektarın məhsuldarlığı orta hesabla 19,92 sentner təşkil edir.

(davamı növbəti sayımızda)

**Nardar BAYRAMLI**

# "ASAN xidmət"ə 25 milyonuncu müraciət qeydə alınıb





Noyabrın 5-də "ASAN xidmət"ə 25 milyonuncu vətəndaş müraciəti qeydə alınıb.

AZƏRTAC xəbər verir ki, bu müraciət 5 saylı Bakı "ASAN xidmət" mərkəzinə Bənövşə Rzayeva tərəfindən edilib. O, Daxili İşlər Nazirliyi tərəfindən həyata keçirilən ümumvətəndaş pasportlarının verilməsi və dəyişdirilməsi xidmətindən yararlanıb. 25 milyonuncu müraciətin sahibi kimi B.Rzayevaya Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev tərəfindən təşəkkürnamə və simvolik hədiyyə təqdim olunub.

Bu barədə jurnalistlərə məlumat verən Ü.Mehdiyev bildirib ki, hazırda ölkədə 15 "ASAN xidmət" mərkəzi fəaliyyət göstərir. Onlardan 5-i paytaxt Bakıda, digərləri isə Sumqayıt, Gəncə, Sabirabad, Bərdə, Qəbələ, Masallı, Quba, Mingəçevir, İmişli və Şəkidədir.

Gələn il bu mərkəzlərin sayının 20-yə çatdırılması planlaşdırılır. Belə ki, 2019-cu ildə tikilməsi nəzərdə tutulan 5 yeni mərkəz Tovuz, Ağcabədi, Kürdəmir, Şamaxı və Balakən rayonlarında fəaliyyətə başlayacaq.

B.Rzayeva 25 milyonuncu müraciətin sahibi olduğu üçün fərəh hissi keçirdiyini bildirib. O, rahat və operativ xidmət göstərdikləri üçün "ASAN xidmət"ə təşəkkür edib.

# Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən Gəncədə əməliyyat keçirilib

*Gəncədə saxlanılan zaman silahlı müqavimət göstərmiş iki nəfər məhv edilib*



Radikal dini ekstremist qrupun üzvləri Ələkbərov Famil Fazil oğlu və Rzayev Rüstəm Rafael oğlunun silah-sursat və partlayıcı maddələr əldə etmələri, ölkə ərazisində terror aktı planlaşdırdıqları barədə daxil olmuş məlumat aparılan araşdırmalarla təsdiqlənib, Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən təxirəsalınmaz tədbirlər keçirilib.

Dövlət Təhlükəsizliyi Xidmətinin ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, noyabrın 4-də Gəncə şəhərində tərksilah olunmaları və cinayət məsuliyyətinə cəlb edilmələri üzrə keçirilən əməliyyat tədbirləri zamanı Rüstəm Rzayevin və Famil Ələkbərovun olduğu və sonuncunun idarə etdiyi avtomobil saxlanılıb. Lakin həmin şəxslər odlu silahdan atəş açıb silahlı müqavimət göstəriblər. DTX-nin xüsusi əməliyyat qrupu tərəfindən cavab tədbiri olaraq Famil Ələkbərov və Rüstəm Rzayev məhv edilib.

Hadisə yerindən 1 ədəd "Kalaşnikov" avtomatı, həmin silaha aid sursat, 1 ədəd "F1" əl qumbarası, Famil Ələkbərova məxsus avtomobilə baxış zamanı partlayıcı maddə olan 3 ədəd 200 qramlıq trotil şaşkası və onları işə salmaq üçün 3 ədəd elektrodetonator aşkar edilərək maddi sübut kimi götürülüb.

Faktla bağlı cinayət işi başlanılıb, əməliyyat-istintaq tədbirləri davam etdirilir.

# "Nar" Göyçayda keçirilən festivalda aktiv iştirak edib

Hər zaman Azərbaycan xalqının zəngin keçmişi, adət-ənənələri və milli-mədəni irsinə bağlılıq nümayiş etdirən "Nar" Göyçayda keçirilmiş ənənəvi Nar festivalında aktiv iştirak edib. Festival çərçivəsində mobil operator tərəfindən təşkil edilmiş kompleks tədbirlər geniş ictimai marağa səbəb olub. Müxtəlif maraqlı müsabiqələr və əyləncəli oyunlarla müşayiət olunan tədbir zamanı qurulmuş "Nar" çadırı ikiqat bayram əhval-ruhiyyəsi yaradıb. Nar bayramında iştirak edənlər "Nar" çadırına gələrək, mobil operator tərəfindən keçirilən tədbiri maraqla izləyiblər. "Nar" çadırında iştirakçılar üçün xüsusi müsabiqə təşkil edilib və qalib gələnlərə müasir telefonlar hədiyyə edilib. Abunəçilərə mobil operatorun ölkənin regionlarına göstərdiyi diqqəti, xüsusi olaraq bölgələr üçün nəzərdə tutulan və dəqiqəsi cəmi 1 qəpiyə danışmaq imkanı verən "Yerlim" tarifi haqqında ətraflı məlumat verilib. Bundan başqa, "Nar" əməkdaşları tədbir iştirakçılarına mobil operatorun fəaliyyət istiqamətləri, şəbəkənin təkmilləşdirilməsi ilə bağlı görülən işlər, 2018-ci il ərzində ölkə ərazisində qurulan yeni baza stansiyaları və digər işlər barədə geniş məlumat veriblər. Tədbir iştirakçıları müxtəlif hədiyyələrlə mükafatlandırılıblar.



Həmçinin "Nar" öz abunəçiləri üçün Nar bayramı ilə əlaqədar Göyçaya tur təşkil edib. Belə ki, mobil operatorun oktyabrın 30-da sosial mediada abunəçiləri arasında keçirdiyi müsabiqədə qalib gələn 20 nəfər "Nar" əməkdaşları ilə birgə Göyçaya səfər edib və "Nar" çadırında təşkil edilən tədbirlərdə aktiv iştirak ediblər.

Qeyd edək ki, Göyçay bütün dünyada məşhur olan Azərbaycan narının vətəni hesab olunur. Nar festivalı hər ilin noyabr ayında məhz bu rayonda möhtəşəm bayram əhval-ruhiyyəsində keçirilən bir tədbirdir.

"Nar" kampaniyaları, məhsul, xidmət və tarifləri haqqında məlumatı nar.az internet səhifəsindən öyrənmək olar.

# "Azercell"in növbəti Eksklüzivi Qazaxda



Azərbaycan telekommunikasiya bazarında liderliyini qoruyan, daima texnoloji yenilikləri tətbiq edən, bütün müasir xidmətləri abunəçiləri üçün mümkün edən "Azercell Telekom" MMC rahatlığı və innovativ tərzi ilə seçilən növbəti Eksklüziv mağazasını istifadəyə verib. Müştəri xidməti sahəsində hər zaman müştəri məmnuniyyətinə böyük önəm verən şirkətin Qazax rayonu, Firuddin Şamoyev küçəsi, 1A ünvanında açılan mağazası ən müasir avadanlıqla təchiz olunaraq yeni konsepsiyaya uyğun təşkil edilib. Mağazada abunəçilər müştəri xidmətlərində edilən əksər əməliyyatları, telefon danışığına görə ödəmələri həyata keçirə və istədikləri mobil cihazları nağd və ya kredit şəklində əldə edə bilərlər. Mağazanın açılışında iştirak edən Qazax rayon İcra Hakimiyyəti başçısının müavini Tahir Musayev çıxış edərək yeni mağazanın istifadəyə verilməsi münasibətilə rayon sakinlərini və mağazanın əməkdaşlarını səmimi qəlbdən təbrik edib.

Digər eksklüziv mağazalarda olduğu kimi, "Azercell" Qazaxdakı müştəriləri üçün də açılış gününə özəl xüsusi kampaniya keçirir. Belə ki, 2 noyabrdan etibarən 7 gün müddətində Qazax "Azercell" Eksklüziv mağazasından yeni Smartfon alan hər bir müştəri "Azercell" nömrəsinin balansına danışıq və internet istifadəsi üçün 150 AZN hədiyyə qazanacaq.

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
Baş redaktor:
Hikmət BABAOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 6074
"Kapital Bank"ın Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

İnformasiya mənbələrimiz:
"AZƏRTAC",
"Azadinform", "SİA"
Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
**Buraxılışa məsul**:
Aqşin ŞAHİNOĞLU